№ 104 (5626), 2022-ci il

Qiymәti 40 qәpik

# ŞӘRQ

Günәş Şәrqdәn doğur!

www.sherg.az 15 iyun 2022-ci il (çәrşәnbә)

## Binәli Yıldırım vә sәfiri Şuşaya sәfәr edib



**Türkiyәnin sabiq baş nazir, Türk Dövlәtlәri Tәşkilatı (TDT) Ağsaqqallar Şurasının sәdri, Türkiyәnin hakim Әdalәt vә İnkişaf Partiyasının (AKP) sәdr müavini Binәli Yıldırım Şuşaya sәfәr edib.**

Bu barәdә Türkiyәnin Azәrbaycandakı sәfiri Cahit Bağcı tviter hesabında bildirib.

O, iyunun 15-dә Azәrbaycanın mәdәniyyәt paytaxtı Şuşa şәhәrindә Şuşa Bәyannamәsinin imzalanmasının birinci ildönümü münasibәtilә keçirilәn tәdbirdә iştirak edәcәk.

Ondan başqa tәdbirә Türkiyәnin kәnd tәsәrrüfat vә meşәçilik naziri Vahit Kirişçi, mәdәniyyәt vә turizm naziri Mehmet Nuri Ersoy, Milliyyәtçi Hәrәkat Partiyasının (MHP) baş katibi İsmail Büyükataman da qatılacaq.

## Püşk atıldı

“Qarabağ” Polşanın “Lex” klubu ilә qarşılaşacaq




**Çempionlar Liqasının 2022/23 mövsümünün I tәsnifat mәrhәlәsinin püşkü atılıb.**

Azәrbaycan çempionu ”Qarabağ”ın ilk rәqibi bәlli olub. Ağdam tәmsilçisi bu mәrhәlәdә Polşanın ”Lex” klubu ilә qarşılaşacaq. Qurban Qurbanovun yetirmәlәri ilk matçı sәfәrdә keçirәcәk.

*I tәsnifat mәrhәlәsinin ilk qarşılaşmaları iyulun 5-6-da baş tutacaq. Cavab görüşlәri isә iyulun 12-13-dә keçirilәcәk.*

## Bakıda ictimai çimәrliklәr tam hazır vәziyyәtә gәtirilib



### Bütün baxımsız sahilyanı әrazilәr tullantılardan tәmizlәnib

**Bakıda yaradılmış bütün ictimai çimәrliklәr tam hazır vәziyyәtә gәtirilәrәk paytaxt sakinlәrinin ixtiyarına verilib.**

Bu barәdә IDEA İctimai Birliyinin mәlumatında bildirilib.

Mәlum olduğu kimi, son iki il әrzindә Heydәr Әliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin tәsisçisi vә rәhbәri Leyla Әliyevanın tәşәbbüsü ilә paytaxtın Şıx, Görәdil, Novxanı, Buzovna, Pirşağı vә Sahil qәsәbәlәrindә baxımsız sahilyanı әrazilәr tullantılardan tәmizlәnәrәk, hәmin yerlәrdә pulsuz ictimai çimәrliklәr yaradılıb.

(Davamı sәh.2)




## "Bu qәlәbә Azәrbaycanın idman tarixindә qalacaq"

“Çünki ilk dәfәdir ki, ölkәmiz komanda idman növündә Avropa çempionu olmuşdur”

**“Vәtәn sevgisi varsa, hәtta bәzilәri üçün әlçatmaz olan nailiyyәtlәri әldә etmәk olar”. Bunu Prezident İlham Әliyev Slovakiyada keçirilmiş minifutbol üzrә Avropa çempionatının qalibi olan milli komandamızın üzvlәrini qәbul edәrkәn deyib.**

Dövlәt başçısı bildirib ki, özü dә daxil olmaqla, Azәrbaycanda heç kim bu qәlәbәni gözlәmirdi vә bu qәlәbәnin ikiqat sevinci mәhz bununla bağlıdır: ”Yәni bu göstәrir ki, mümkündür, әn güclü rәqiblәri mәğlub etmәk mümkündür. Bilirәm ki, bir çoxlarınız ayrı-ayrı işlәrlә mәşğulsunuz, sözün әsl mәnasında, hәvәskar idmançılarsınız vә әgәr belә demәk mümkündürsә, minifutbol sizin üçün bir hobbidir.

(sәh.2)

## Çavuşoğlu vә Stoltenberq NATO-nun genişlәnmәsini müzakirә edib



**Türkiyәnin xarici işlәr naziri Mövlud Çavuşoğlu NATO-nun Baş katibi Yens Stoltenberqlә telefon danışığı aparıb.**

Bu barәdә Türkiyә XİN mәlumat yayıb.

*Qeyd olunub ki, tәrәflәr NATO-nun genişlәnmәsi mәsәlәsini müzakirә edib.*

# Zәngәzur dәhlizinin açılması reallaşacaq

## Azәrbaycan-İran anlaşması Ermәnistan üzәrindә әlavә iqtisadi tәzyiq demәkdir

**“Türkiyә-Rusiya Birgә Monitorinq Mәrkәzinin fәaliyyәti Şuşa Bәyannamәsindә tәqdir edilib, bu sahәnin mütәxәssislәri, rәsmi qurumlar tәrәfindәn dә razılıqla qarşılanıb. Hәmçinin bәyannamә imzalanandan sonra ölkәmizdә Türkiyә Silahlı Qüvvәlәrini tәmsil edәn Xidmәt Qrupu fәaliyyәtә başlayıb”.**

**Bu sözlәri Azәrbaycan Tәhlükәsizlik Şurasının (TŞ) katibi, general-polkovnik Ramil Usubov rәsmi mәtbuata müsahibәsindә deyib. Ramil Usubov qeyd edib ki, Şuşa Bәyannamәsi tәhlükәsizlik vә hәrbi sahәdә әmәkdaşlığı daha üst sәviyyәyә qaldıran, indiyәdәk hәyata keçirilәn müştәrәk tәdbirlәrin vә ümumilikdә fәaliyyәtin miqyasının daha da genişlәnmәsini vacib sayan әsas çәrçivә sәnәdlәrindәn biridir: ”O, iki dövlәtin, iki Prezidentin müxtәlif sahәlәr üzrә, xüsusәn hәrbi tәhlükәsizlik sahәsindә fәaliyyәt istiqamәtlәrini, hәdәflәrini bәyan edәn ali sәviyyәli sәnәddir. Müharibәyә qәdәrki dövrdә Türkiyәnin Azәrbaycandakı hәrbi-tәhlükәsizlik sahәsindә tәmsilçiliyi yalnız birgә tәlimlәrdә iştirak, hәrbi kadrların vә müdafiә sәnayesi potensialının, arsenalının tәkmillәşmәsinә yardım idi.**



(sәh.3)

## Taksi xidmәti sahәsindә xaos hökm sürür

“Bunun qarşısını almaq üçün qaydalar işlәnilmәli, taksi fәaliyyәti ilә bağlı vahid konsepsiya qәbul olunmalı vә qiymәtlәr müәyyәnlәşmәlidir”



**Yay gәlәn kimi ictimai nәqliyyatda kondisioner problemi dә başlayır.**

Bakının yollarında zaman-zaman yaranan tıxacları nәzәrә alsaq, insanları başa düşmәk çәtin deyil. Bu günlәrdә sosial şәbәkәlәrdә paylaşılan bir video müzakirәlәrә sәbәb olub. Paytaxtda taksi xidmәtindәn istifadә edәn vәtәndaşlardan biri anormal halla qarşılaşıb.

Taksi sifariş verәn şәxs sürücüdәn kondisioneri yandırmasını xahiş edir. Sürücü isә bunun üçün gediş haqqından әlavә bir manat pul tәlәb edir. Hәtta bunu elan kimi yazaraq avtomobilә yerlәşdirib.

(sәh.4)



## Gürcüstan prezidenti әhalini mitinqә çağırıb

“Gәlin bir-birimizin gözünün içinә baxaq”

**Gürcüstan prezidenti Salome Zurabişvili vәtәndaşları Tbilisidә, Avropa meydanında keçirilәcәk mitinqә gәlmәyә çağırıb.**

O ölkәnin Avropaya inteqrasiyası siyasәti kursunun dәstәklәnmәsi üçün vәtәndaşları iyunun 16-da Tbilisidә, Avropa meydanında keçirilәcәk mitinqә gәlmәyә çağırıb.

”İyunun 16-da sizi Avropa Meydanına vә Rike Parkın yaxınlığında toplaşmağa dәvәt edirәm. Gәlin bir-birimizin gözünün içinә baxaq vә Avropaya inteqrasiya yolunda özümüzü, birliyimizi, iradәmizi göstәrәk”,- deyә Zurabişvili bildirib.(apa)

O, hәmçinin müxalifәti ölkәdә baş verәnlәrlә bağlı Aİ-yә yanlış mәlumat göndәrmәkdә ittiham edib. Zurabişvili bir daha bütün tәrәflәri birliyә çağırıb.

## Kәlbәcәrdә әsgәrimizi elektrik cәrәyanı vurub

Ölüm hadisәsi ilә bağlı cinayәt işi başlanıb



**Hәrbi Prokurorluq Kәlbәcәrdә әsgәr ölümü ilә bağlı mәlumat yayıb.**

Hәrbi Prokurorluqdan verilәn mәlumata görә, Azәrbaycan Respublikası Müdafiә Nazirliyinin N saylı hәrbi hissәsinin hәrbi qulluqçusu, әsgәr Әliyarov Riyad Mәmmәd oğlunun 13 iyun 2022-ci il tarixdә Kәlbәcәr rayonu әrazisindә elektrik cәrәyanının vurması nәticәsindә ölmәsi barәdә Kәlbәcәr Hәrbi Prokurorluğuna daxil olmuş mәlumat әsasında әmәkdaşlar tәrәfindәn hadisә yerinә vә meyitә baxış keçirilmiş, iş üçün әhәmiyyәt kәsb edәn predmetlәr maddi sübut kimi götürülmüş, izahatlar alınmış, müvafiq ekspertizalar tәyin edilmiş vә digәr zәruri hәrәkәtlәr icra edilib. “Fakt üzrә Kәlbәcәr Hәrbi Prokurorluğunda araşdırma davam etdirilir vә qanunvericiliyin tәlәblәrinә uyğun olaraq bütün tәdbirlәrin görülmәsi, o cümlәdәn fakta hüquqi qiymәt verilmәsi tәmin olunacaq”.

## Daha 19 nәfәr koronavirusa yoluxub

Ölәn olmayıb, 9 nәfәr müalicә olunaraq sağalıb

**Azәrbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 19 yeni yoluxma faktı qeydә alınıb, 9 nәfәr müalicә olunaraq sağalıb.**

Nazirlәr Kabineti yanında Operativ Qәrargahdan ”Şәrq”ә verilәn mәlumata görә, COVID-19 üçün götürülәn analiz nümunәlәri müsbәt çıxmış şәxslәrdәn vәfat edәn olmayıb. İndiyәdәk ölkәdә ümumilikdә 792 903 nәfәrin koronavirus infeksiyasına yoluxması faktı müәyyәn edilib, onlardan 783 103 nәfәr müalicә olunaraq sağalıb, 9 715 nәfәr vәfat edib. 85 nәfәr aktiv xәstә sayını tәşkil edib. Son sutka әrzindә yeni yoluxma hallarının müәyyәnlәşdirilmәsi ilә әlaqәdar 2 217, bu günә qәdәr isә ümumilikdә 6 926 715 test icra olunub.

## Bizә heç kim yan baxa bilmәz

Şuşa Bәyannamәsi son 200 ilin әn unikal sәnәdidir



(sәh.3)

## "Qızlar әrә gedәndәn sonra әrinin narkoman olduğunu bilir"

Novella Cәfәroğlu: "Bu bәlaya qarşı әn vacib mübarizә üsulu evlәnәndә gәnclәrin hәkim müayinәsindәn keçmәsidir"



(sәh.5)





# "Bu qələbə Azərbaycanın idman tarixində qalacaq"

## "Çünki ilk dəfədir ki, ölkəmiz komanda idman növündə Avropa çempionu olmuşdur"

**"Vətən sevgisi varsa, hətta bəziləri üçün əlçatmaz olan nailiyyətləri əldə etmək olar". Bunu Prezident İlham Əliyev Slovakiyada keçirilmiş minifutbol üzrə Avropa çempionatının qalibi olan milli komandamızın üzvlərini qəbul edərkən deyib.**

Dövlət başçısı bildirib ki, özü də daxil olmaqla, Azərbaycanda heç kim bu qələbəni gözləmirdi və bu qələbənin ikiqat sevinci məhz bununla bağlıdır: "Yəni bu göstərir ki, mümkündür, ən güclü rəqibləri məğlub etmək mümkündür. Bilirəm ki, bir çoxlarınız ayrı-ayrı işlərlə məşğulsunuz, sözün əsl mənasında, həvəskar idmançılarsınız və əgər belə demək mümkündürsə, minifutbol sizin üçün bir hobbidir. Sizin qarşınızda Avropanın ən güclü komandaları vardı. Əminəm ki, o komandaların maliyyə təminatı, dəstəyi və digər üstünlükləri sizinkindən qat-qat artıq idi. Amma buna baxmayaraq, qələbə qazanmısınız, hamımızı sevindirmisiniz və öz adlarınızı Azərbaycanın idman tarixinə yazdırmısınız. Əlbəttə ki, bu uğuru təkrarlamaq çox çətin olacaq. Amma əminəm ki, komandamızın perspektivləri də çox gözəldir. Əminəm, bu qələbədən sonra gənc nəsil - uşaqlar, yeniyetmələr bu idman növünü seçəcəklər ki, sizin kimi Avropa çempionu olsunlar.

**"Şadam ki, minifutbol komandamızın tərkibi yerli idmançılardan ibarətdir"**

**Prezident minifutbol komandamızın tərkibinin yerli idmançılardan ibarət olmasından şad olduğunu deyib:** "Bu məni xüsusilə sevindirir. Onu da bilirəm ki, minifutbol üzrə bizim komandamız cəmi ikinci dəfə Avropa çempionatında iştirak edir və artıq çempion tituluna layiq görülüb. Mübarizə gərgin olub, istənilən idman növündə Avropa çempionatları çox gərgin keçir. Bu, doğrudan da çox böyük qələbədir, tarixi qələbədir. Hər dəfə beynəlxalq yarışlarda idmançılarımız qələbə qazananda əminəm ki, hər bir vətənpərvər insan qürur hissi keçirir, hər dəfə bayrağımız qaldırılanda hər birimiz sevinirik. Qələbələr xalqımıza yaraşır, həm döyüş meydanında, həm idman arenalarında. Əminəm ki, Azərbaycan idmançıları bundan sonra da beynəlxalq yarışlarda Vətənimizi ləyaqətlə təmsil edəcəklər".

**Dövlət başçısı vurğulayıb ki, komanda idman növlərinin inkişafı imkan verəcək ki, idmanın inkişafı hərtərəfli olsun:** "Düzdür, bu tarixi uğuru təkrarlamaq heç kim üçün asan olmayacaq, amma hər halda biz çalışmalıyıq ki, təkcə fərdi idman növlərində deyil, eyni zamanda, komanda idman növlərində də Azərbaycan idmançıları beynəlxalq yarışlarda yüksək nəticələr göstərsinlər. Bildiyiniz kimi, fərdi idman növlərində isə bizim çox böyük uğurlarımız var. Olimpiya, dünya, Avropa çempionlarımızın sayı çoxdur və əminəm ki, artacaq. Beləliklə, komanda idman növlərinin inkişafı imkan verəcək ki, idmanın inkişafı hərtərəfli olsun".

> Prezident İlham Əliyev: "Qələbələr xalqımıza yaraşır, həm döyüş meydanında, həm idman arenalarında. Əminəm ki, Azərbaycan idmançıları bundan sonra da beynəlxalq yarışlarda Vətənimizi ləyaqətlə təmsil edəcəklər"

**"Bu qələbə digər idman növləri üçün gözəl nümunədir"**

**Prezident qeyd edib ki, bu qələbə digər idman növləri üçün gözəl nümunədir:** "İlk növbədə, sizi tarixi qələbə münasibətilə təbrik edirəm. Hesab edirəm ki, bu qələbə Azərbaycan idmanının tarixində qalacaq. Çünki ilk dəfədir ki, ölkəmiz komanda idman növündə Avropa çempionu olmuşdur və bu qələbəni siz qazanmısınız, minifutbol üzrə milli komandamız. Azərbaycanda idmanın inkişafı ilə bağlı çox işlər görülüb, ancaq bu günə qədər komanda idman növündə biz böyük uğurlara nail ola bilməmişik. Düzdür, bizim şahmatçılarımız iki dəfə Avropa çempionu olmuşlar, amma şahmat fərdi idman növüdür, sadəcə olaraq, komanda şəklində çıxış etmiş şahmatçılarımız bu böyük nailiyyəti əldə etmişlər. Ancaq oyun idman növlərində belə bir qələbə olmamışdır. Ona görə bu qələbənin çox böyük mənası var və əminəm ki, digər idman növləri üçün bu, çox gözəl nümunədir", - dövlət başçısı deyib.

**"Sizin qələbəniz çox böyük qiymətə layiqdir"**

**Ölkə rəhbəri bəyan edib ki, bundan sonra Minifutbol Federasiyamız da dövlət tərəfindən eyni qayğı ilə əhatə olunacaq:** "Dövlət tərəfindən bütün şərait yaradılıb və idmanın inkişafı ilə bağlı heç bir maneə yoxdur, əksinə, dövlət dəstəyi daim göstərilir. Ancaq minifutbol idman növünə gəldikdə, bizim üçün bu, nisbətən yeni idman növü olduğuna görə bu sahədəki nailiyyətləri siz özünüz qazanmısınız. Mən deyə bilmərəm ki, minifutbolçular üçün hansısa xüsusi şərait yaradılmışdır, yaxud da ki, xaricdən tanınmış mütəxəssislər, məşqçilər, legionerlər dəvət edilmişdir, yox, bunların heç biri olmayıb. Ona görə sizin qələbəniz çox böyük qiymətə layiqdir. Bu qələbəni siz özünüz qazanmısınız, əlbəttə ki, federasiya və idman mütəxəssisləri, məşqçilər və oyunçular, idmançılar, - komanda deyəndə mən bunu nəzərdə tuturam, - siz bu qələbəni halal zəhmətinizlə qazanmısınız".

**"Minifutbol Federasiyamız da dövlət tərəfindən qayğı ilə əhatə olunacaq"**

**Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda idmana da, idmançılara da diqqət göstərilir:** "İdmançılar dövlət tərəfindən hər zaman qayğı ilə əhatə olunurlar və bu, təbiidir. Çünki idman, idmanda qələbələrimiz həm ölkəmizin beynəlxalq nüfuzunu qaldırır, eyni zamanda, sağlam həyat tərzini təbliğ edir və bu, hesab edirəm ki, daha vacibdir. Çünki hamımız istəyirik ki, Azərbaycan xalqı sağlam olsun, gənclər kütləvi surətdə idmanla məşğul olsunlar. İdmanın kütləviliyinin genişləndirilməsi və idmanda qələbələrin əldə edilməsi üçün dövlət idmançılara, klublara, federasiyalara həmişə böyük diqqət və qayğı göstərir. Əminəm ki, bundan sonra Minifutbol Federasiyamız da dövlət tərəfindən eyni qayğı ilə əhatə olunacaq".

**İsmayıl**

## Prezident Azərbaycan Minifutbol Federasiyasına 1 milyon manat ayırıb

**Prezident İlham Əliyev Azərbaycan Minifutbol Federasiyasına maliyyə dəstəyi göstərilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Azərbaycan milli yığma komandasının 2022-ci il minifutbol üzrə Avropa çempionu olması ilə əlaqədar Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Minifutbol Federasiyasına 1 milyon manat ayrılıb.

*Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti isə bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.*

## Milli Məclisin növbədənkənar iclasının tarixi məlum olub

**Milli Məclisin növbədənkənar iclasının tarixi məlum olub.**

İclasın iyunun 17-də keçirilməsi nəzərdə tutulur.

Qeyd edək ki, Milli Məclisin sədri Sahibə Qafarova 77 deputatın tələbi ilə Azərbaycan Respublikası Konstitusiyasının 88-ci maddəsinin II hissəsinə əsasən, 2022-ci il iyunun 1-dən Azərbaycan Respublikası Milli Məclisinin növbədənkənar sessiyasının çağırılması haqqında sərəncam imzalayıb.

*Sərəncamda bildirilir ki, növbədənkənar sessiyanın gündəliyinə daxil edilmiş məsələlər bitdikdən sonra Milli Məclisin növbədənkənar sessiyası işini yekunlaşdırmış hesab edilir.*





## Tofiq Mirzəyev "Xalq artisti" fəxri adı və "Şöhrət" ordeni ilə təltif edilib

**Prezident İlham Əliyev Tofiq Mirzəyevə "Xalq artisti" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Azərbaycan kino sənətinin inkişafında xidmətlərinə görə Tofiq İbrahim oğlu Mirzəyevə "Xalq artisti" fəxri adı verilsin.

*Prezident İlham Əliyevin digər sərəncamı ilə Azərbaycan kinematoqrafiyasının inkişafında səmərəli fəaliyyətinə görə Tofiq İbrahim oğlu Mirzəyev "Şöhrət" ordeni ilə təltif edilib.*

# Bakıda ictimai çimərliklər tam hazır vəziyyətə gətirilib

## Bütün baxımsız sahilyanı ərazilər tullantılardan təmizlənib

*(Əvvəli səh.1)*

**Sahil zonalarında insanların xoş asudə vaxtının keçirilməsi üçün lazımi şəraitin təmin edilməsi ilə yanaşı, təmizlik, təhlükəsizlik və rahatlığına görə nümunəvi olan ictimai çimərliklərin yaradılması cəmiyyətdə ekoloji və sosial məsuliyyətin təşviq edilməsinə yönəlib.**



İctimai çimərlik - **Şıx qəsəbəsi**

Sözügedən ictimai çimərliklərdə geniş abadlıq işləri aparılıb, Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqəsi yaradılıb, sərinləşdirici içkilər və müxtəlif qida məhsulları təklif edən köşklər, tələbata uyğun miqdarda kölgəliklər, soyunub-geyinmə və duş kabinaları, sanitar qovşaqlar, söhbətgahlar quraşdırılıb, futbol və voleybol meydançaları, avtomobil dayanacağı yaradılıb, dəniz kənarına uzanan yola asfalt çəkilib. Vətəndaşların istirahətinin təşkili üçün çimərlik ərazilərinə kifayət qədər oturacaq və şezlonqlar, ərazi boyunca zibil konteynerləri yerləşdirilib.

Eyni zamanda, ölkədə ilk dəfə olaraq, Şıx çimərliyində əlilliyi olan şəxslərə müyəssərliyin təmin edilməsi məqsədi ilə lazımi şərait yaradılıb. Belə ki, sözügedən çimərlikdə hərəkəti məhdud olan şəxslərin suya və çimərlikdəki məntəqələrə maneəsiz gedə bilməsi üçün xüsusi yollar və panduslar inşa edilib, çimərlik ərazisinə ən yaxın dayanacaq əlilliyi olan şəxslər üçün xüsusi nişanlama ilə ayrılıb. Qeyd edilməlidir ki, bu cür infrastrukturun digər ictimai çimərliklərdə də yaradılması nəzərdə tutulur.

Çimərlik mövsümünün açılışı ilə əlaqədar, bütün sözügedən ictimai çimərliklərdə ziyarətçilərin rahat və təhlükəsiz istirahəti üçün bütün lazımi təmizlik, abadlıq və digər hazırlıq işləri tamamlanıb.

IDEA İctimai Birliyi hamıya xoş yay istirahətləri arzulayır, hər kəsi təbiətin bəxş etdiyi gözəlliklərdən və yaradılan şəraitdən hər zaman zövq ala bilmək üçün sahillərin təmizliyinə diqqət etməyə, ətrafını çirkləndirməməyə çağırır.

**Aygün**

# Şuşa Bəyannaməsi vaxtında verilmiş ən doğru qərardır

## Azərbaycan və Türkiyə müttəfiqlik bəyannaməsi ilə öz güclərini birləşdirdilər



**"2021-ci ildə Türkiyə və Azərbaycan arasında müttəfiqlik sazişinin həm iyunun 15-də, həm Şuşa şəhərində imzalanması simvolik xarakter daşıyır". Bu sözləri "Şərq" qəzetinə açıqlamasında Türkiyədə yaşayan tanınmış azərbaycanlı alim, Ankara Universitetinin professoru, siyasi şərhçi Toğrul İsmayıl deyib.**

Professor bildirib ki, 44 günlük müharibədən sonra Şuşa Bəyannaməsinin imzalanması xüsusi əhəmiyyət kəsb edirdi: "İki qardaş ölkənin əməkdaşlığının, əlaqələrinin strateji müttəfiqlik səviyyəsinə qaldırılması mühüm idi. Ötən bir il ərzində Azərbaycan və Türkiyə bir çox məsələdə vahid mövqe sərgiləyib, birgə addım atıblar. Təhlükəsizlik şuralarının birgə iclası, alınan qərarlarda ortaq məxrəcə gəlinməsi, bölgəmizdə baş verən proseslərin dəyərləndirilməsi, Qarabağ məsələsinin tamamilə həll edilməsi, İrəvanla gedən sülh danışıqları, Zəngəzur dəhlizi və s. məqamlar Şuşa Bəyannaməsi fonunda xüsusi önəm kəsb edir. Azərbaycan və Türkiyə müttəfiqlik bəyannaməsi ilə öz güclərini birləşdirdilər. Yeni geopolitik vəziyyət elan etdilər. Tərəflər arasındakı münasibətlər, regional inkişaf prosesləri, "3+3" əməkdaşlıq modeli və başqa proseslər məhz Şuşa Bəyannaməsi əsasında cərəyan edir. Bütün bu proseslər fonunda bölgədəki güc balansı nöqteyi-nəzərindən və Azərbaycanın əlinin güclənməsi baxımından Şuşa Bəyannaməsi zamanında verilmiş ən doğru qərarlardan biridir. Bəyannamə iki ölkənin əməkdaşlığının yaxın zamanda daha da inkişafı üçün olduqca əhəmiyyətlidir".

**İsmayıl**

**2021-ci ildə 3 min, 44 günlük Vətən müharibəsindən sonra isə 3500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlərlə təmin edilib. Bunu Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov postmüharibə dövründə şəhid ailələri və müharibə əlillərinin mənzil və avtomobillə, sosial xidmətlərlə təminatı işlərinə dair keçirdiyi mətbuat konfransında bildirib.**

Qeyd olunub ki, Prezident İlham Əliyevin tapşırığına əsasən şəhid ailələri və müharibə əlillərinin mənzil təminatı proqramı 2021-ci ildə 5 dəfə genişlənib və keçən il 3 min mənzilin bu kateqoriyalardan olan şəxslərə verilməsi proqramı icra olunub. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ötən dövrdə ümumilikdə 12 min 500-dən çox şəhid ailəsi və müharibə əlilinə mənzil və ya fərdi ev verilib. Dövlət başçısının 25 avqust 2021-ci il tarixli Sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanlarına və onlardan şəhid olanların ailələrinə də mənzillər verilir. Bu il artıq sosial cəhətdən həssas qruplardan olan ailələrə 500-dən çox mənzil verilib. Cari il ərzində ümumilikdə 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Müharibə əlillərinin avtomobillə təminatı tədbirləri çərçivəsində son 4 ildə də 1450-dək, ümumilikdə ötən dövrdə 7400 müharibə əlili avtomobillə təmin edilib. Postmüharibə dövründə 450-dən çox şəhid ailəsi və müharibə əlilinə sanatoriya-kurort və müalicə mərkəzlərinə yollayış verilib. 41 nəfər müharibə əlili peşə reabilitasiyasına cəlb olunub, 60 qazi üçün motivasiya düşərgələri təşkil olunub. Həmçinin, həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinin Görmə qabiliyyəti məhdudluğu olan şəxslər üçün sosial reabilitasiya və bərpa şöbəsində qazilər tibbi, pedaqoji, idman, mədəniyyət və incəsənət, psixoloji, eləcə də digər sosial reabilitasiya xidmətlərinə cəlb ediliblər.



# Dövlət təxirəsalınmaz işlər həyata keçirir

## 2025-ciilədək əksər şəhid ailəsi və müharibə əlili mənzillərlə təmin ediləcək

**Millət vəkili Naqif Həmzəyev "Şərq"ə açıqlamasında bildirib ki, Prezident cənab İlham Əliyevin birbaşa göstərişi ilə sosial təminatın gücləndirilməsi və sosial xidmətlərin yüksək səviyyədə təşkil edilməsi ilə əlaqədar təxirəsalınmaz işlər həyata keçirilir.** Deputat deyib ki, 2021-ci ildə üç min, 44 günlük Vətən müharibəsindən sonra isə üç min beş yüzə yaxın şəhid ailəsi və müharibə veteranlarına mənzillər verilib: "Dövlət başçısının tapşırığı ilə 2021-ci ildə şəhid ailələri və müharibə əlillərinə mənzillərin verilməsinin miqyası 5 dəfə artırılıb. Hər zaman olduğu kimi şəhid ailələrinə, müharibə veteranlarına, müharibə əlillərinə dövlət qayğısı çox yüksək səviyyədədir. Bu diqqət və qayğı gündən-günə artmaqdadır. Prezident cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu sahəyə xüsusi həssaslıqla, qayğı ilə yanaşmaları digər sahələrə nisbətdə daha çoxdur. Ölkə rəhbərliyi bu kateqoriyadan olan insanların sosial təminatına böyük diqqət ayırır. Ötən dövrdə ümumilikdə 12 500-dən çox şəhid ailəsi və müharibə əlilinə mənzillər, fərdi evlər paylanılıb. Bununla bağlı çoxsaylı dövlət proqramları həyata keçirilir. Düşünürəm ki, 2025-ci ilədək əksər şəhid ailəsi və müharibə əlili mənzillərlə təmin ediləcək. Dövlət başçısının 23 avqust 2021-ci il Sərəncamı ilə Vətən müharibəsi qəhrəmanlarına və şəhid ailələrinə mənzillərin verilməsi davam etdirilir. Bu il sosial cəhətdən həssas qrupa daxil olan ailələrə də 500-dən çox mənzil verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi cənab Prezidentin və Birinci xanımın tapşırıqlarını yüksək səviyyədə icra etməyə çalışırlar. Bu sahədə həssas qrupa daxil olan insanların məşğulluq problemləri ilə bağlı da Məşğulluq Agentliyi xüsusi dövlət proqramları icra edir. İstənilən halda unutmamalıyıq ki, bu sahədə olan problemlər və ehtiyaclar yekunlaşana kimi durmadan, dayanmadan işləməliyik".

**İsmayıl Qocayev**



# Müharibə olmayacaq

## NATO iki üzvü arasında seçim edə bilməz

İsmayıl Qocayev

**Yunanıstan ilə Türkiyə arasında yaşanan gərginlik artmaqdadır. Afina Aralıq dənizinin şərqində Türkiyənin bölgədəki mümkün araşdırmalarına mane olmaq üçün əlindən gələni edir.**

Yunanıstanın bölgədə təlimlərə başlayacağı bildirilir. Rəsmi Ankara isə Yunanıstana ardıcıl xəbərdarlıq edir, gərginliyi artırmaqdan çəkindirməyə səsləyir. Yunanıstan isə sərt ritorikasından geri çəkilmir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, iki ölkə arasında gərginlik vaxtaşırı baş verir. Analitikin sözlərinə görə, gərginliklər bəzən iki ölkəni real müharibə vəziyyətinə gətirsə də, indiyədək lokal müharibənin şahidi olmamışıq:** "Yunanıstan və Türkiyə arasındakı mövcud gərginliyin müharibə sferasına keçəcəyini düşünmürəm. Hər iki ölkə NATO-ya üzvdür. Alyans daxilində ehtimal bir müharibə hərbi bloku gücdən sala bilər. Mövcud Rusiya-Ukrayna müharibəsinin davam etdiyi bir zamanda belə bir müharibənin olması inandırıcı deyil. Yunanıstan və Türkiyə arasında hərbi iqtisadi-siyasi güc balansına baxdıqda rəsmi Afinanın açıqca Ankaradan geridə qaldığını görmək mümkündür. Türk ordusu hazırda istər NATO-nun, istərsə də dünyanın ən qüdrətli ordularından hesab olunur. Türkiyə ordusu eyni zamanda xalqı uzun illər davam edəcək bir müharibəyə hazır olsa da rəsmi Afina buna hazır deyil. Bununla belə rəsmi Afinanın indiki məqamda Ankaranın səbri ilə oynaması da səbəbsiz deyil. Yunanıstan Rusiya-Ukrayna müharibəsində Qərbin Ukraynaya verdiyi yardımları görür və Qərbin köməyi ilə Egeydə qüvvələr balansını öz xeyrinə dəyişməyə çalışır. Lakin bu, boş və mənasız yanaşmadır. Rusiya Ukraynanın ərazi bütövlüyünə hörmətsizlik edərək açıq şəkildə beynəlxalq hüququ pozur. Qərb də məhz buna görə Ukraynaya Rusiya qarşısında müqavimət göstərmək üçün yardım edir. Ehtimal Yunanıstan-Türkiyə müharibəsində Qərbin Ukraynada olduğu kimi, Afinaya yardım etməsi real deyil. NATO iki üzvü arasında seçim edə bilməz. Nəticə etibarilə Avropanın "ərköyün uşağı" sayılan Yunanıstanın Qərbə arxalanması nəticəsiz qalacaq. Türkiyə isə Afinanın bu və ya başqa formada nazı ilə oynamaq fikrində deyil. Tərəflər arasında real müharibə olmasa da, Ankara "Kardak" adası böhranında olduğu kimi, Afinaya qərarlı mövqeyini nümayiş etdirəcək".

> "Avropanın "ərköyün uşağı" sayılan Yunanıstanın Qərbə arxalanması nəticəsiz qalacaq"

# MEDİA-da "Milli Qurtuluş Günü Azərbaycan mediasının yaddaşında" mövzusunda tədbir keçirilib



**İyunun 14-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyində "Milli Qurtuluş Günü Azərbaycan mediasının yaddaşında" mövzusunda tədbir keçirilib.**

"Şərq" xəbər verir ki, tədbirdə çıxış edən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov bildirib ki, xalqımızın taleyində böyük ictimai, siyasi və tarixi əhəmiyyət daşıyan bu günün memarı olan Ümummilli Lider Heydər Əliyevin şəxsiyyəti, özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi sayəsində xalqımız azərbaycançılıq ideyaları ətrafında birləşdi, Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı və 15 iyun müasir Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə dövlətimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi möhtəşəm Zəfər memarı Ulu Öndər Heydər Əliyev olan dövlətimizin qüdrətini daha da artırıb.

Tədbirdə digər çıxış edənlər Ulu Öndərin həmişə jurnalist peşəsinə dərin hörmət bəslədiyini, mətbuat işçiləri ilə yaxın təmasda olduğunu, onların problemləri ilə maraqlandığını və heç bir zaman köməyini əsirgəmədiyini vurğulayıb, Ümummilli Lider Heydər Əliyevin nurlu xatirəsinin Azərbaycan mətbuatının tarixində, Azərbaycan jurnalistlərinin qəlbində əbədi yaşayacağını bildiriblər.




# Zəngəzur dəhlizinin açılması reallaşacaq

## Azərbaycan-İran anlaşması Ermənistan üzərində əlavə iqtisadi təzyiq deməkdir

İsmayıl Qocayev

**"Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyəti Şuşa Bəyannaməsində təqdir edilib, bu sahənin mütəxəssisləri, rəsmi qurumlar tərəfindən də razılıqla qarşılanıb. Həmçinin bəyannamə imzalanandan sonra ölkəmizdə Türkiyə Silahlı Qüvvələrini təmsil edən Xidmət Qrupu fəaliyyətə başlayıb".**

Bu sözləri Azərbaycan Təhlükəsizlik Şurasının (TŞ) katibi, general-polkovnik Ramil Usubov rəsmi mətbuata müsahibəsində deyib. Ramil Usubov qeyd edib ki, Şuşa Bəyannaməsi təhlükəsizlik və hərbi sahədə əməkdaşlığı daha üst səviyyəyə qaldıran, indiyədək həyata keçirilən müştərək tədbirlərin və ümumilikdə fəaliyyətin miqyasının daha da genişlənməsini vacib sayan əsas çərçivə sənədlərindən biridir: "O, iki dövlətin, iki Prezidentin müxtəlif sahələr üzrə, xüsusən hərbi təhlükəsizlik sahəsində fəaliyyət istiqamətlərini, hədəflərini bəyan edən ali səviyyəli sənəddir. Müharibəyə qədərki dövrdə Türkiyənin Azərbaycandakı hərbi-təhlükəsizlik sahəsində təmsilçiliyi yalnız birgə təlimlərdə iştirak, hərbi kadrların və müdafiə sənayesi potensialının, arsenalının təkmilləşməsinə yardım idi. Savaş müddətində isə qardaş ölkə haqq işimizə birmənalı mənəvi, siyasi, diplomatik dəstək göstərməklə yanaşı, öz hərbi sənayesinin modern qurğuları ilə də qələbəmizə töhfə verdi. Türkiyənin bölgədə daha fəal hərbi-təhlükəsizlik təmsilçiliyi artıq zərurətə çevrildi. Bu məqam Ermənistanın təslimçilik aktı kimi tarixə düşən üçtərəfli razılaşma sənədində "sülhməramlı mərkəz" statusunda xüsusi müddəa ilə təsdiq olundu". R.Usubov qeyd edib ki, iki dövlətin hərbi-təhlükəsizlik əlaqələrini fəaliyyət prioritetlərindən biri kimi elan edən Şuşa Bəyannaməsi həm də bu sahədəki əməkdaşlığın genişlənməsini konkret vəzifə kimi müəyyənləşdirib.

General-polkovnik Zəngəzur dəhlizindən də danışıb. Onun sözlərinə görə, növbəti mərhələ Zəngəzur dəhlizinin açılmasıdır ki, artıq İrəvan burada da maneə yaratmaq imkanlarını itirir: "Bu prosesdə də möhtərəm Prezidentin yüksək diplomatik məharəti əsas rol oynayır. Onun təşəbbüsü ilə İranla imzalanan anlaşma memorandumu əsasında, İran-Ermənistan sərhədindən 5 kilometr cənubdan keçərək Şərqi Zəngəzur ilə Naxçıvanı birləşdirən yeni nəqliyyat qovşağı çəkiləcək. Dəmiryol xəttindən, çoxzolaqlı avtomobil şosesindən, elektrik enerji ötürmə xətlərindən, rəqəmsal rabitə və başqa elementlərdən ibarət olacaq yeni nəqliyyat arteriyası Zəngəzur dəhlizi ilə bağlı Ermənistanın manevrlərini tam əhəmiyyətsiz edir. Ermənistan hakimiyyəti belə düşünür ki, yeni nəqliyyat qovşağı məsələsində, guya, üstün mövqedədir və şərtləri o diktə etməlidir. Ancaq möhtərəm Prezidentimiz cəmi 5 kilometr coğrafi fərqlə bu nəqliyyat qovşağının istifadəyə veriləcəyini bəyan etdi və Ermənistan növbəti dəfə hesablarında yanıldı".

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, Türkiyənin Cənubi Qafqazdakı postmünaqişə dövründə regionda fəal hərbi-siyasi təmsilçiliyi ilə əlaqədardır.** Ekspert bəyan edib ki, Türkiyə 10 noyabr bəyanatına özünün maraqlarını daxil edə bilib. Bu, razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılması ilə nəticələnib: "Ağdamda yerləşən Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzi Ankara ilə Moskvanı birgə sülhməramlı baxış ortaya qoymağa vadar edir. Türkiyə isə birbaşa sahənin içərisindən əldə etdiyi nəticələri Azərbaycanla bölüşür. Həmin Mərkəzin fəaliyyətinə dair müddəa Şuşa Bəyannaməsinə da salınıb. Amma bundan sonra Türkiyə Silahlı Qüvvələrini təmsil edən Xidmət Qrupu tam yeni format və tərzdə Azərbaycanda fəaliyyətə başlayıb ki, bu da Ankaranın regiondakı təsirlərini çoxaldan əlavə istiqamət yaradıb. Şuşa Bəyannaməsinə əsasən, Azərbaycan və Türkiyə təhlükəsizlik şuralarının iclasları keçiriləcək. Bu iclaslar əsasən regional təhdidlərin ram edilməsi, onun qlobal təhlükəsizlik sistemindəki manevrlərlə ayaqlaşdırmaq məqsədi daşıyır. Ramil Usubovun dedikləri ona dəlalət edir ki, Azərbaycan və Türkiyənin təhlükəsizlik şuraları mütəmadi olaraq birgə iclaslar keçirir. Hərçənd ki, həmin iclasların stenoqramları yoxdur. Şuşa Bəyannaməsi Azərbaycanla Türkiyəni daxili sabitliyə, terrorçu, dini-ekstremist strukturların fəaliyyətinin qarşısını almaq üçün konsepsiya hazırlamağa da təşviq edəcək".

**Analitik vurğulayıb ki, Azərbaycan 2021-ci ilin mayından etibarən Ermənistanla sərhədə çıxış əldə etdikdən sonra özünün mövqelərini əhəmiyyətli dərəcədə irəli çəkdi və bu proses Naxçıvan istiqamətində də getdi. Bu isə Ermənistanı Zəngəzur dəhlizinin "ya güc yolu ilə, ya da xoşluqla" açılması dilemması qarşısında qoyur:** "Hər iki halda isə Zəngəzur dəhlizi açılacaq, İrəvan isə qara-qura mövqedən əl çəkməlidir və bunun faydasını düşünməlidir. Azərbaycanın İranla imzaladığı sənəd, yəni İran-Ermənistan sərhədindən 5 kilometr cənubdan keçərək Şərqi Zəngəzur ilə Naxçıvanı birləşdirən yeni nəqliyyat qovşağı Zəngəzur dəhlizinin əhəmiyyətini artırır. Azərbaycan-İran anlaşması Zəngəzur dəhlizinin açılması üçün Ermənistan üzərində əlavə iqtisadi təzyiq mexanizmidir. Bu isə Türkiyə ilə birgə işin nəticəsidir, yəni memorandum Azərbaycan-Türkiyə-İran formatında Ermənistan üzərində iqtisadi rıçaq yaradır".

# Bizə heç kim yan baxa bilməz

## Şuşa Bəyannaməsi son 200 ilin ən unikal sənədidir



**15 iyun Türkiyə ilə Azərbaycan arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin birinci ildönümüdür. Ötən bir il ərzində Türkiyə-Azərbaycan qardaşlığı, müttəfiqliyi daha da irəliləyib. Bakıda keçirilən möhtəşəm "TEXNOFEST"də münasibətlərin daha da istiləşməsininin şahidi olduq.**

Festival çərçivəsində Bakı səmasında Azərbaycanın və Türkiyənin qırıcı təyyarələri dövrə vurdular. Qars müqaviləsində olduğu kimi, Şuşa Bəyannaməsi də Ermənistan üçün ciddi narahatlıq yaradır. Tarixə nəzər yetirsək görərik ki, Ermənistanın hələ yüz il əvvəl imzalanan "Qars müqaviləsi" ilə bağlı böyük narazılıqları olub. Çünki sözügedən müqavilə ermənilərin yeni ərazi iddialarının qarşısına keçilməz bir sədd çəkirdi. Məhz bu baxımdan, Şuşa Bəyannaməsinin Qars müqaviləsinə istinad etməsi heç də təsadüfi deyil. Qarabağın düşmən işğalından qurtarılması, Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın və Türkiyənin regionda yeni geostrateji güc mərkəzi kimi ortaya çıxmasına imkan verib. Bir sözlə, Azərbaycan və Türkiyə dünya miqyasında nadir qardaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi sərgiləyir.

**Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətini "Şərq"ə dəyərləndirən Türkiyənin Azərbaycandakı keçmiş hərbi attaşesi, general Yücel Karauzun fikirlərinə əsasən, iki dövlət arasında imzalanan saziş siyasi, hərbi, iqtisadi, mədəni və digər sahələri əhatə edən unikal paktdır:**

Şuşa Bəyannaməsi ilə "bir millət, iki dövlət" ideyasının lazım gəlsə, "bir millət, bir dövlət, hətta bir ordu" halına çevriləcəyi prinsipcə əsaslandırılıb.

Bəyannamə Birləşmiş Millətlər Təşkilatının beynəlxalq hüququ çərçivəsindədir. O, dinc məqsədlər üçün nəzərdə tutulub və müdafiə xarakteri daşıyır. Hərbi, müdafiə, güvənlik siyasətində ortaq hərəkətetmə, dəyərləndirmə qərarı verilib. Cənab Prezident R.T.Ərdoğanın "TEXNOFEST Azərbaycan"da dediyi kimi, "Türkiyə kimi bura da bizim vətənimizdir. Türkiyənin hər qarışı da sizin vətəninizdir. Bir il müddətində böyük nəticələr qazanılıb. Özəlliklə hərbi fəaliyyətlərə dair iki ölkənin Silahlı Qüvvələri müştərək şəkildə suda və quruda birgə təlimlər gerçəkləşdirib. Qarsdakı "Qış təlimləri"ndən tutmuş, ən son Türkiyədə reallaşan "Heydər Əliyev-2022" təlimləri həyata keçirilib".

*Türkiyəli general Şuşa Bəyannaməsinin önəmli nüanslarını vurğulayıb:*

"Türkiyə ordusu modeli çərçivəsində Azərbaycan silahlı qüvvələrinin komando birləşmələrinin yaradılması, yüksək hərəkət qabiliyyəti ilə gecə-gündüz daha çox hərəkət edə bilən xüsusi təyinatlı zabit və komandoların tətbiqi Şuşa Bəyannaməsinin ortaya qoyduğu mühüm hadisələrdir. Eləcə də müdafiə sənayesi sahəsində əməkdaşlıq və müştərək istehsalatların aparılması işində irəliləyiş əldə olunub. Məsələn, "TEXNOFEST Azərbaycan" çox uğurla baş tutdu. Bu sahədə birgə istehsal, birlikdə dünya bazarlarına çıxmaq, öz ehtiyaclarını ödəmək istiqamətində çox mühüm addımlar atılıb.

Şuşa Bəyannaməsinin bənzərsiz maddəsi isə birgə təhlükəsizlik komissiyasının yaradılmasıdır. Mütəmadi olaraq görüşmək, regional və qlobal təhlükələri aşkarlamaq və birlikdə mübarizə aparmağa hesablanmış fəaliyyətdir. Təhlükəsizlik komissiyası ilə birgə hadisələrin perspektivi və təhlükəsizlik konsepsiyası üzərində aparılan işlər Rusiya-Ukrayna müharibəsi fonunda öz mahiyyətini göstərdi".

**Y.Karauzun qənaətincə, yalnız hərbi fəaliyyət deyil, qardaş ölkələr arasında kosmos, hava və media sahəsində də əlaqələrin genişləndirilməsi istiqamətində addımlar atılıb:**

"Ona görə də Şuşa Bəyannaməsi beynəlxalq hüquq baxımından son 200 ilin ən yüksək səviyyəli müttəfiqlik müqaviləsidir. Dünyada iki başqa ölkə arasında belə bir əlaqə yoxdur. Eyni zamanda Şuşa Bəyannaməsi İstanbul Bəyannaməsi ilə yeni mərhələyə qədəm qoyan türk dövlətlərini təşkilatlanmağa təşviq edib. Türkiyənin Qazaxıstan və Özbəkistanla əlaqələri, xüsusən də Azərbaycanın Türkmənistanla münasibətləri başda olmaqla, ikitərəfli əlaqələrin inkişafına, türk dünyasının ümumilikdə özünü tapmasına və 2030-cu il baxışı kontekstində irəliləməsinə şərait yaradıb.

İcra mexanizmi prezidentlər səviyyəsində, nazirliklə razılaşdırılaraq, hər sahədə davam edir. Yaxın vaxtlarda digər iki dövlət arasında Şuşa Bəyannaməsinə oxşar sazişin imzalanacağını gözləmirəm. Çünki Şuşa Bəyannaməsi iki xalqın eyni mənşə və köklərə söykənən dostluq və qardaşlığının nəticəsidir. Bu dostluqda maraq, mənfəət yoxdur. Başqa ölkələrin ərazi bütövlüyünü hədəf alan qanunsuzluq yoxdur. Əksinə, vahid milli hüquq, beynəlxalq hüquq normaları Şuşa Bəyannaməsini ərsəyə gətirən əsas məsələlərdəndir".

**Aygün Tahir**

# Aclıq başlayıb, Paşinyan alternativ yollar axtarır

## Rusiyanın iqtisadi vəziyyətinin ağırlaşması irəlilədikcə Ermənistana daha çox təsir göstərəcək



**Ermənistan iqtisadiyyatı gündən-günə zəifləyir. Onsuz da inkişafdan geri qalan ölkədə Azərbaycanın təmiz qələbəsi ilə başa çatan 44 günlük savaşdan sonra yaranmış qeyri-stabil siyasi durum, hökumətin istefası tələbləri, tibbi və sosial xərclərin kəskin artımı və digər amillər vəziyyətin dramatikliyini tam çılpaqlığı ilə üzə çıxarır.**

Ermənistan Baş naziri Nikol Paşinyan da bunu dilə gətirib. O, "Əl-Cəzirə" telekanalına müsahibə verib.

Baş nazir bildirib ki, Rusiyaya qarşı sanksiyalar fonunda Ermənistan iqtisadiyyatı üçün vəziyyət xoş deyil.

"Şübhəsiz, Ermənistan iqtisadiyyatına təkcə Rusiyadakı iqtisadi situasiya birbaşa təsir etməyib, həm də ərzaq təminatı ilə bağlı problemlər, inflyasiya və digər faktorların doğurduğu qlobal iqtisadi gərginlik də təsir edib", - N.Paşinyan vurğulayıb. Paşinyan ölkə iqtisadiyyatındakı vəziyyətin idarə ediləն olacağına ümidini diqqətə çatdırıb.

**Vəziyyəti "Şərq"ə dəyərləndirən iqtisadçı-ekspert Natiq Cəfərlinin sözlərinə görə, Ermənistan iqtisadiyyatının təqribən 70 faizi Rusiyadan asılıdır:** "Ümumi Daxili Məhsulun ( ÜDM ) az qala 25-30 faizi Rusiyadan göndərilən vəsait hesabına formalaşır. Yəni Rusiyada yaşayan, işləyən ermənilərin Ermənistana göndərdiyi vəsait hesabına ərsəyə gəlir. Rusiyanın iqtisadi vəziyyətinin ağırlaşması irəlilədikcə Ermənistana daha çox təsir göstərə bilər. Buna görə erməni hökuməti alternativlər axtarır. Həm Avropa Birliyi ilə münasibətlərin yaxşılaşdırılmasına, həm Türkiyə ilə sərhədlərin açılmasına çalışır.

Ermənistanın alternativlər tapmaqdan başqa çarəsi yoxdur. Mütləq Rusiya iqtisadiyyatının onlara təsirini azalda biləcək alternativ yollar tapmalıdırlar.

Bu yollar isə Azərbaycan, Türkiyə və Avropa ilə münasibətlərin yaxşılaşdırılmasından keçir".

**Aygün Tahir**

# Paşinyanın bir səhvi ona baha başa gələ bilər

## Baş nazir sərhədlərin müəyyənləşməsi prosesini yubatmamalı, xalqının gələcəyini düşünməlidir

İsmayıl Qocayev



**Ermənistanın Baş naziri Nikol Paşinyan "Əl-Cəzirə" kanalına müsahibəsində bildirib ki, Azərbaycanla Ermənistanın delimitasiya və sərhədlərin təhlükəsizliyi üzrə milli komissiyası Qarabağla əlaqədar deyil. Onun sözlərinə görə, rəsmi Bakı ilə İrəvan arasında biri delimitasiya üzrə olmaqla müxtəlif formatda ünsiyyət var:**

"Ermənistan-Azərbaycan dialoqunun ikinci istiqaməti tərəflər arasında münasibətlərin normallaşmasıdır. Danışıqların üçüncü istiqaməti də var. Bu, regional nəqliyyat və iqtisadi kommunikasiyanın blokdan çıxarılmasıdır". Baş nazir əlavə edib ki, regionda sülhün bərqərar olması üçün ən vacib məsələ "Dağlıq Qarabağ"dır. Jurnalistin "Rusiya bu məsələdə daha çox Azərbaycanı dəstəkləyir" sualına Ermənistan hökumətinin rəhbəri "Rusiya Ermənistanın strateji partnyoru və müttəfiqidir, amma onun Azərbaycanla da çox yaxın münasibətləri var" deyə cavab verib. Xatırladaq ki, bir neçə gün öncə Rusiya XİN rəhbəri Sergey Lavrov İrəvanda səfərdə olarkən Fərrux kəndi ilə bağlı suala, "bu məsələnin delimitasiya prosesinin tərkib hissəsi" olduğunu söyləmişdi.

**Paşinyanın zaman-zaman bir-birinə zidd açıqlamalarla gündəmə gəlməsini "Şərq"ə dəyərləndirən siyasi elmlər doktoru Cümşüd Nuriyev bildirib ki, baş nazir Azərbaycanla aparılan danışıqların 3 istiqamətdə getməsindən və heç birində Qarabağ məsələsinin olmamasından dolayı yolla şikayətlənir.** Professorun sözlərinə görə, Qarabağ problemi, "Dağlıq Qarabağ" termini artıq müzakirə predmeti deyil: "Brüssel görüşündə də Qarabağın adı çəkilmədi. Sadəcə, Qarabağ bölgəsində olan etnik ermənilərin hüquqlarından, onların təhlükəsizliyindən bəhs edildi. Azərbaycanla Ermənistan arasında ilk növbədə müzakirə olunan məsələ sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlıdır. Bundan öncə Sergey Lavrovun İrəvanda Fərrux kəndi ilə bağlı səsləndirdiyi fikirlər birbaşa publikaya hesablanmışdı. Lavrov kimi peşəkar bir diplomat sərhədlərin müəyyən olunması prosesindən bixəbər deyil. Gözəl bilir ki, Azərbaycan daxilindəki Fərrux kəndinin sərhədlərin delimitasiyası ilə əlaqəsi yoxdur. O ki qaldı Paşinyana, erməni baş nazir indiki məqamda daha ağıllı hərəkətlər etməli, məntiqli bəyanatlar səsləndirməlidir. Amma baş nazir hakimiyyətini itirməkdən qorxur. Daxildəki etiraz aksiyalarından, revanşistlərin hücumlarından ehtiyatlanır. Ancaq proseslər başlayıb və müəyyən addımlar atılıb. Avropa İttifaqı da Azərbaycan-Ermənistan arasındakı normallaşma prosesinə ciddi töhfələr vermək niyyətində olduğunu göstərir. Rusiya da Aİ-nin mövqeyini dəstəkləməyə məcburdur. Çünki Brüssel görüşünün yekun bəyanatlarında bölgədə sülh və əməkdaşlıqdan bəhs olunur. Yaxşı olar ki, Paşinyan da provokasyon çıxışlardan uzaq dursun və öz ölkəsinin gələcəyini düşünsün".




# "Sosial media jurnalistin məlumat mənbəyi kimi"

## Media inkişafı üzrə mütəxəssis vebinar iştirakçıların suallarını cavablandırıb

**İyunun 14-də Medianın İnkişafı Agentliyinin və ADA Universitetinin Kommunikasiya və Rəqəmsal Media proqramının birgə təşkilatçılığı ilə "Sosial media jurnalistin məlumat mənbəyi kimi" mövzusunda ilk vebinar keçirilib.**

"Şərq" xəbər verir ki, vebinarda müxtəlif media subyektlərinin nümayəndələri, jurnalistika ixtisasında təhsil alan və jurnalistikaya marağı olan tələbələr, həmçinin Media könüllüləri iştirak edib.

Vebinarın moderatoru, Kommunikasiya və Rəqəmsal Media proqramının direktoru Şəfəq Mehrəliyeva bildirib ki, əsas məqsəd yerli iş bazarında kommunikasiya və media mütəxəssislərinə artan ehtiyacı tədricən ödəməklə yanaşı, həm də Azərbaycanda bu sahənin elmi potensialını artırmaqdır. Vurğulanıb ki, bu gün başlanılan vebinarlar silsiləsi yalnız gənc media nümayəndələri üçün deyil, həm də təcrübəli mütəxəssislər üçün faydalı müzakirə platformasına çevriləcəkdir.

Sonra "Sosial media jurnalistin məlumat mənbəyi kimi" mövzusunda təqdimatla çıxış edən media inkişafı üzrə mütəxəssis Emin Hüseynzadə sosial medianın jurnalistikaya təsirindən bəhs edib. Bildirib ki, informasiya-kommunikasiya texnologiyaları sürətlə inkişaf edir və bu inkişaf sosial medianın yüksəlişinə səbəb olur. Sosial şəbəkənin fərqli rollarından, xüsusiyyətlərindən danışan mütəxəssis jurnalistin sosial mediadan məlumat mənbəyi kimi istifadə edərək öz işini daha keyfiyyətli necə yerinə yetirə bilməsi məsələlərini diqqətə çatdırıb. Vebinarda "Deep fake"lə mübarizə üsulları da qeyd edilib.

*Media inkişafı üzrə mütəxəssis sual-cavab sessiyasında vebinar iştirakçılarını maraqlandıran sualları cavablandırıb.*



# Səhvi etiraf etmək müsbət haldır

## DİM iddiaları əsaslı sayaraq imtahanı təkrar keçirəcək

Məlahət Rzayeva

**Doktorantura və dissertantura səviyyəsində xarici dildən qəbul imtahanı və fəlsəfə doktoru imtahanlarından narazı qalanlarla Dövlət İmtahan Mərkəzində görüş keçirilib. Görüşdə Mərkəzin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə və müvafiq departament rəhbərləri iştirak edib.**

Müzakirələr əsasən imtahanın mürəkkəblik dərəcəsi ətrafında olub. Namizədlər imtahanda onlara güzəşt edilməsi və keçid balının aşağı salınmasını xahiş ediblər. Rəhbərlik tərəfindən bildirilib ki, bu imtahanda iştirakçılar Ali Attestasiya Komissiyasının qərarı ilə xarici dillərə yiyələnmə səviyyəsinin müəyyənləşdirilməsi üzrə Ümumavropa tövsiyə çərçivə sənədinin (CEFR) B2 səviyyəsinə uyğun bilik və bacarıqlara malik olmalıdırlar. İmtahanın mürəkkəblik dərəcəsi də həmin səviyyəyə uyğun olmalıdır. İştirakçıların nəzərinə çatdırılıb ki, 12 iyunda keçirilən imtahanın sualları gün ərzində Dövlət İmtahan Mərkəzinin saytında yerləşdiriləcək. İmtahanda istifadə olunan dinləmə mətnlərinin səsləndirmə qurğusundakı ardıcıllığı ilə bağlı yaranan uyğunsuzluqla əlaqədar müraciət edənlərə isə imtahanın yenidən keçirilməsi ilə bağlı təklif irəli sürülüb. Görüşdə olanlardan iki nəfər təklifə müsbət reaksiya verib və yenidən imtahanda iştirak etmək üçün ərizə təqdim edib. Beləliklə, səsləndirmədə olan uyğunsuzluğa görə narahatlıq keçirən və buna görə də bütün imtahan suallarının cavablandırılmasında çətinlik çəkdiklərini iddia edən iştirakçıların müraciəti əsasında Dövlət İmtahan Mərkəzi tərəfindən onların bu imtahandakı bütün nəticələri ləğv ediləcək yenidən imtahan təşkil olunması qərara alınıb. Bu imtahandan toplanılan bal yekun imtahan nəticəsi kimi əsas götürüləcək. Bütün bloklar və ya yalnız dinləmə bloku üzrə yenidən imtahanda iştirak etmək istəyənlər 16 iyun saat 17:00-dək (15 İyun - Milli Qurtuluş Günü istisna olmaqla) Dövlət İmtahan Mərkəzinə (Bakı şəhəri, Nəsimi rayonu, Akademik Həsən Əliyev, 299) ərizə ilə müraciət etməli və ya şəxsiyyət vəsiqəsinin və imzalanmış ərizənin skan edilmiş surətini info@dim.gov.az poçtuna Mövzu bölməsində "Doktorantura - yeni imtahan" yazıb yollamalıdırlar.

Növbəti mərhələdə danışıq (speaking) imtahanı keçiriləcək. Mövcud qaydalara əsasən, həmin imtahandan iki baldan aşağı nəticə göstərən namizədlər növbəti mərhələyə buraxılmırlar. Bununla əlaqədar, danışıq imtahanında iki baldan aşağı nəticə göstərən namizədlər üçün təkrar imtahan keçirilməyəcək.

**Fəlsəfə doktoru Rafiq İsmayılov "Şərq"ə açıqlamasında imtahan iştirakçılarının narazılığının nəzərə alınmasını müsbət addım hesab etdiyini dedi:**

- Bu, DİM-in böyüklüyüdür ki, narazıları qəbul edib, iddiaları əsaslı sayaraq imtahanların yenidən keçirilməsinə qərar verir. Səhvi etiraf etmək, əlbəttə müsbət haldır. Görünür, dinləmə mətnləri yenidən araşdırılıb, uyğunsuzluq olduğu aydınlaşıb və ona görə də narazılıq əsaslı sayılıb. Hesab edirəm ki, bu situasiyada DİM vəziyyəti obyektiv qiymətləndirib. Bilirsiz, burada texniki problem də ola bilər. Şübhəsiz, imtahan materiallarının hazırlanmasına mütəxəssislər cəlb edilir. Amma hər işdə nöqsan ola bilər, gözlənilməz hallar yarana bilər, yaxud adi texniki problem imtahanın gedişatına, imtahan verənlərin, abituriyentlərin yanlış cavablar verməsinə səbəb ola bilər. Yaxşı haldır ki, bu cür məsələlər müzakirə yoluyla həllini tapır.

**R.İsmayılov qeyd etdi ki, o özü də DİM imtahan materiallarının hazırlanması prosesində ekspert kimi bir neçə dəfə iştirak edib:**

- Mən proses zamanı şahidi olurdum ki, DİM-nə cəlb edilmiş mütəxəssislər əllərindən gələni edirlər ki, imtahan materiallarında əskiklik, yanlışlıq olmasın. Suallar, test tapşırıqları düzgün tərtib edilsin. Amma bəzən istəmədən nəsə bir problem yaşanır, yanlışlığa yol verilir. Əsas odur ki, DİM "yox, biz deyən doğrudur", deyə israr etmir, səhvini qəbul edir və şəxslərin təkrar imtahanda iştirak etmək hüququnu tanıyır.

# Savaş xərclərini aşdı

## Rusiya müharibənin ilk 100 günündə enerji ixracından 97 milyard dollar qazanıb




**Dünyanın əsas neft və qaz ixracatçılarından biri olan Rusiyanın Ukraynaya qarşı başlatdığı müharibənin maliyyə xərcləri ilə bağlı yeni hesabat dərc edilib.**

Müstəqil Enerji və Təmiz Hava Araşdırma Mərkəzi (CREA) Rusiyanın Ukraynaya qarşı başlatdığı müharibənin ilk 100 günündə enerji ixracından 97 milyard dollar gəlir əldə etdiyini açıqlayıb. Sözügedən gəlirin müharibənin təxmini xərclərinin üzərində olduğu vurğulanıb.

**Müstəqil Enerji və Təmiz Hava Araşdırmaları Mərkəzinin (CREA) açıqladığı hesabatda bir çox ölkələr yüksək miqdarda idxal etdiyi halda, Rusiyadan enerji alışını azaldan ölkələr səbəbindən mart ayından etibarən gəlirlərinin azaldığı bildirilib.**

Rusiyadan qaz və neft idxalını azaltmağa söz verən ölkələr arasında Avropa İttifaqı (Aİ), ABŞ və Böyük Britaniya da var.

Bununla belə, CREA hesabatında Rusiyanın Ukrayna hücumlarının ilk 100 gündə, fevralın 24-dən iyunun 3-nə kimi qalıq yanacaq ixracından hələ də 97 milyard dollar gəlir əldə etdiyi bildirilib.

Bu idxalın yüzdə 61-i Avropa İttifaqının payına düşür, bunun təxminən 59 milyard dollar dəyərində olduğu ifadə edilir.

Ümumilikdə Rusiyanın neft və qaz ixracatının azaldığı bildirilən hesabatda, Moskvanın enerji satışından əldə etdiyi gəlirin mart ayından etibarən gündəlik 1 milyard dolları keçən səviyyədən azaldığı vurğulanıb.

Hesabatda həmçinin vurğulanıb ki, müharibənin ilk 100 günündə Rusiyanın enerji ixracından əldə etdiyi gəlir, müharibənin Rusiyaya xərclədiyi təxmini 876 milyon dolları keçib.

Aİ 2022-ci ilin sonuna qədər dəniz yolu ilə Rusiya neftinin idxalına qadağa qoymağı planlaşdırdığını bildirib ki, bu da idxalın üçdə ikisini azaldacaq.

Lakin ABŞ Rusiyadan neft, qaz və kömür idxalını tamamilə qadağan etdiyini, Böyük Britaniya isə ilin sonuna qədər Rusiya neftinin idxalını mərhələli şəkildə dayandıracağını açıqlayıb.

Turan

# Taksi xidməti sahəsində xaos hökm sürür

## "Bunun qarşısını almaq üçün qaydalar işlənilməli, taksi fəaliyyəti ilə bağlı vahid konsepsiya qəbul olunmalı və qiymətlər müəyyənləşməlidir"




**Yay gələn kimi ictimai nəqliyyatda kondisioner problemi də başlayır. Bakının yollarında zaman-zaman yaranan tıxacları nəzərə alsaq, insanları başa düşmək çətin deyil. Bu günlərdə sosial şəbəkələrdə paylaşılan bir video müzakirələrə səbəb olub. Paytaxtda taksi xidmətindən istifadə edən vətəndaşlardan biri anormal halla qarşılaşıb.**

Taksi sifariş verən şəxs sürücüdən kondisioneri yandırmasını xahiş edir. Sürücü isə bunun üçün gediş haqqından əlavə bir manat pul tələb edir. Hətta bunu elan kimi yazaraq avtomobilə yerləşdirib. Bu məsələdə nə taksi sürücülərini qınamaq olur, nə də sərnişinləri. Taksi sürücüləri iddia edirlər ki, A məntəqəsindən B məntəqəsinə qədər hesablanan gediş haqqı çox azdır: "Müştəriləri itirməsinlər deyə taksi şirkətləri aşağı qiymət təklif edirlər. Sərnişin isə avtomobilə əyləşəndə qışda soba, yayda isə kondisionerin yandırılmasını istəyir. Bu isə əlavə yanacaq sərfiyyatıdır. Biz müştəriyə izah edə bilmirik ki, onun verdiyi gediş haqqı heç avtomobilin yanacaq xərci etmir. Avtomobilin benzindən əlavə, yağı var, müxtəlif diaqnostikaları var. O cür işləmək bizə də sərf etmir axı. Biz də ailəmizi dolandırmaq üçün yollara çıxmışıq".

**Mövcud vəziyyəti və çıxış yollarını "Şərq"ə şərh edən nəqliyyat üzrə ekspert Elməddin Muradlı bildirib ki, bu sahədə dövlət nəzarətinə çox ciddi ehtiyac var:**

"Çünki taksi fəaliyyəti xidmət sahəsidir. Özəl sektor olsa da, burada özbaşınalıq ola bilməz. İstənilən halda qayda və qanunlar öz sözünü deməlidir. Ancaq hazırda xaos hökm sürür. İndi taksi fəaliyyətində istənilən qeyri-adi hala rast gələ bilərik. Vəziyyət çox qarışıqdır. Bunun qarşısını almaq üçün qaydalar işlənilməli, taksi fəaliyyəti ilə bağlı vahid konsepsiya qəbul olunmalı və qiymətlər müəyyənləşməlidir. Yay-qış, gecə-gündüz tarifləri, pik saatlara aid xüsusi tariflər yalnız qanunlar çərçivəsində müəyyən olunmalıdır. Yeni sürücü özbaşına qiymət tətbiq edə bilməz. Bu kimi qaydalar bərqərar olsa, belə problemlər də aradan qalxar".

Taksi sürücülərinə haqq qazandıran ekspert, sürücü hüquqlarının qorunmasının vacib olduğunu vurğulayıb:

"Taksi sürücülərini qınamıram. Çünki Azərbaycana doluşan xarici şirkətlər elə qiymət siyasəti müəyyənləşdiriblər ki, taksi sürücüləri onların əlində əsirə çevrilib. Sürücülər istismar olunurlar. Bu səbəbdən mən onları başa düşürəm. Onlar heç kimə borclu deyillər ki, kimisə lüks şəraitdə gəzdirib, özləri axşam evə pulsuz getsinlər. Onlar da normal qazanc əldə etmək istəyir. Sadəcə səsini çıxara bilmir, qiymət tələb edə bilmir. Çünki onların hüquqlarını qoruyan yoxdur. Bu gün dövlət qurumları taksi sürücülərinin arxasında deyil. Taksi sürücüləri özləri özlərinə iş qurublar, kiminsə əlində qul, kölə kimi işləmək məcburiyyətindədirlər. Dövlət qurumlarının heç taksi sürücülərindən xəbəri belə yoxdur. Azərbaycanda bu işlə məşğul olan 100 mindən artıq şəxs var. 60 minə yaxını elə Bakı şəhərindədir. Onların hüquqlarını kim qorumalıdır? Aidiyyəti qurumlar bu işlə ciddi məşğul olmalıdırlar".

Çimnaz Şahlar



# Şuşa Bəyannaməsi ən yaxşı "yol xəritəsi"dir

## Bu sənəd həm region üçün, həm də türk dünyası üçün ən etibarlı, sabitlik və tərəqqi mənbəyidir

**İsmayıl Qocayev**

**15 iyun - Qurtuluş Günü dövlətçilik təqvimimizdə xilasımızın, qurtuluşumuzun rəmzi kimi müstəsna yer tutur. 15 iyun eyni zamanda Zəfər yolunun Şuşa zirvəsində möhtəşəm hadisənin, iki dost, qardaş və tərəfdaş ölkə - Azərbaycan ilə Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsinin tarixidir.**

1921-ci ildə imzalanmış Qars müqaviləsindən yüz il sonra belə bir Bəyannamənin imzalanması, heç şübhəsiz, böyük mənəvi-siyasi, hərbi-strateji və tarixi əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi tarixi Qars müqaviləsinin 100 il bundan əvvəl imzalanması da böyük rəmzi məna daşıyır: "Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir". Şuşa Bəyannaməsi "bir millət, iki dövlət", "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" kəlamlarının tarixi, milli və siyasi əsaslara söykəndiyini növbəti dəfə təsdiqləyir. İki müstəqil, güclü və nüfuzlu qardaş dövlətin birlikdə möhtəşəm nailiyyətlər qazanmaq, yeni zirvələr fəth etmək iqtidarında olduğunu sübuta yetirir. Bu tarixi sənəd Azərbaycanla Türkiyənin qardaşlığını bütün dünyaya bildirən bir mesajdır.

Milli Həmrəylik Partiyasının sədri, politoloq Əlisahib Hüseynov bildirib ki, ən yeni tariximizin qızıl hərflərlə yazılan möhtəşəm hadisələrindən biri də Şuşa Bəyannaməsinin imzalanmasıdır. Partiya rəhbərinin sözlərinə görə, Şuşa Bəyannaməsinin imzalandığı günün Milli Qurtuluş gününə təsadüf etməsi də əlamətdar haldır: "Ötən bir il ərzində "Bir millət, iki dövlət" anlayışına köklənən qardaşlığımız daha da möhkəmlənib. Dövlətlərarası əlaqələrimiz isə bütün sahələr üzrə genişlənib. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ötən ilin bu günlərində Şuşaya səfər etməsi ilə münasibətlərimizin yeni mərhələsinə start verildi. İndi həm Şuşada, həm də işğaldan azad olunmuş digər ərazilərimizdə iki qardaş ölkənin dövlət bayraqları yanaşı dalğalanır. Hazırda Qarabağda və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri birlikdə həyata keçirilir. Qardaş Türkiyədən gələn şirkətlər bu prosesdə yaxından iştirak edirlər. Biz bütün məsələlərdə birlikdə, çiyin-çiyinə dayanaraq fəaliyyət göstərir, səylərimizi və gücümüzü birləşdiririk.

Şuşa Bəyannaməsinin imzalanması isə gücümüzə güc qatdı. Beləliklə, bütün dünyada bir millət, iki dövlət kimi tanınan Türkiyə və Azərbaycanın birliyinin əbədi olduğu gerçəyi ən mühüm strateji sənədlə bir daha təsdiqlənmiş oldu. Bu Bəyannamə Azərbaycanla Türkiyə arasındakı strateji müttəfiqlik münasibətlərinin rəsmiləşdirdi və iki qardaş dövlət arasındakı əlaqələrin yeni bir mərhələyə daşınmasına start verdi. Şuşa Bəyannaməsi çoxşaxəli müttəfiqlik sənədidir, yeni münasibətlər platformasıdır. Bu platforma Türkiyə və Azərbaycan arasındakı müttəfiqlik əlaqələrini daha da genişləndirir və siyasət, iqtisadiyyat, enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, ordu quruculuğu, beynəlxalq müstəvidə birgə əməkdaşlıq və sair sahələri tam şəkildə əhatə edir. Bəyannamə Azərbaycan və Türkiyə birliyi formatında Cənubi Qafqazda və bütövlükdə bölgədə yeni regional düzənin başlandığını göstərdi. Bu, yeni düzənin tam mərkəzində Azərbaycan-Türkiyə müttəfiqliyi həlledici amil, istiqamətverici vektor rolunu oynayacaq".

Ə.Hüseynov qeyd edib ki, Bəyannamədə iki qardaş ölkə arasında müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləri də öz əksini tapıb: "Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə təhdid və ya təcavüz edildiyi təqdirdə, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur. Bundan sonra Azərbaycanın ərazi bütövlüyünün pozulması, dövlət sərhədlərinə təhdid kimi halların baş verəcəyi təqdirdə qardaş Türkiyə dövləti öz ordusu ilə ölkəmizin yanında yer alacaq. Bu, tamamilə yeni münasibətlər sistemidir və Rusiya, İran kimi geosiyasi "iştah"ları bitib-tükənməyən, Azərbaycana qarşı zaman-zaman çeşidli təxribatlara və təzyiqlərə yol verən ölkələrə açıq mesajdır. İki qardaş ölkə arasında münasibətlərin bu səviyyəyə yüksəlməsi bizim tarixi nailiyyətimizdir. Onu da qeyd etmək lazımdır ki, Şuşa bəyannaməsinə təkcə Azərbaycanla Türkiyənin əbədi birliyini, sıx müttəfiqliyini təsdiqləyən, rəsmiləşdirən sənəd kimi baxmaq lazım deyil. Bu sənəd eyni zamanda regionda davamlı sülh, əməkdaşlıq, təhlükəsizlik və inkişaf üçün olduqca geniş imkanlar açır".

Siyasi şərhçi vurğulayıb ki, bölgədəki digər dövlətlər Azərbaycan-Türkiyənin regional əməkdaşlıq təşəbbüsünə qoşulacaqsa, o zaman Cənubi Qafqaz bölgəsi bütövlükdə sabitlik və inkişaf, əməkdaşlıq və təhlükəsizlik məkanına çevriləcək: "Bölgə xalqlarının tərəqqisi və firavan həyatları təmin ediləcək. Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi həm Azərbaycan və Türkiyənin bölgədəki nüfuzunu və rolunu daha da artıracaq. Həm də bütün bölgə ölkələrinin iqtisadi inkişafı üçün yeni imkanlar yaradacaq. Şuşa Bəyannaməsi türk dünyasının gələcəyi baxımından da çox önəmli geosiyasi instrumentdir. Türkiyə-Azərbaycan strateji mütəffiqliyini növbəti mərhələyə daşıyan bu sənəd, eyni zamanda Türk Dövlətləri Təşkilatının (TDT) digər üzvləri üçün də mükəmməl nümunə ola bilər. Qarşılıqlı əlaqələrin daha da dərinləşdirilməsi üçün zənnimcə, bu sənəd ən yaxşı "yol xəritəsi"dir. Şuşa Bəyannaməsinin imzalanması ilə tamamilə yeni mərhələyə yüksələn Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri həm region üçün, həm də türk dünyası üçün həqiqətən də etibarlı sülh, sabitlik və tərəqqi mənbəyidir. Bəyannamənin Şuşa şəhərində imzalanması dostlarımıza da, düşmənlərimizə də çox önəmli ismarıcdır. Dövlət başçımızın da qeyd etdiyi kimi, Azərbaycanla Türkiyənin qardaşlığı sarsılmazdır, əbədidir".

# Rəsmi Bakının istinad etdiyi xəritələr əsas götürüləcək

## Ermənistan Azərbaycanın yaratdığı mühasirənin miqyasını bilir



**Aygün Tahir**

**Azərbaycan 44 günlük Vətən müharibəsində möhtəşəm qələbə qazandı və Ermənisanın Baş naziri Nikol Paşinyan "gizli şəkildə" "təslim aktı"na qol çəkdi. Ardınca Azərbaycan rəhbərliyi sərhədlərin müəyyənləşməsi istiqamətində fəaliyyətə başlamaq təklifini irəli sürdü.**

2022-ci ilin may ayında Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiyası və təhlükəsizliyi üzrə komissiya yaradılması gerçəkləşdi.

Dünən isə N.Paşinyan "Al-Jazeera"ya müsahibəsində sərhədlərin müəyyənləşməsindən danışıb. Erməni baş nazir bildirib ki, Azərbaycanla Ermənistanın delimitasiya və sərhədlərin təhlükəsizliyi üzrə milli komissiyası Qarabağla əlaqədar deyil. Onun sözlərinə görə, rəsmi Bakı ilə İrəvan arasında biri delimitasiya üzrə olmaqla müxtəlif formatda ünsiyyət var: "Ermənistan-Azərbaycan dialoqunun ikinci istiqaməti tərəflər arasında münasibətlərin normallaşmasıdır. Danışıqların üçüncü istiqaməti də var. Bu, regional nəqliyyat və iqtisadi kommunikasiyanın blokdan çıxarılmasıdır".

Qeyd edək ki, Birgə Sərhəd Komissiyasının mandatı Ermənistan və Azərbaycan arasında ikitərəfli sərhədin delimitasiyası, sərhəd xətti boyunca və onun yaxınlığında sabitliyi, təhlükəsizliyi təmin etməkdən ibarətdir.

**Siyasi analitik Aqşin Kərimovun qənaətincə, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinin sərhəd delimitasiyası kontekstinə daxil edilməsi düşüncəsi diletant yanaşmadır:**

"Delimitasiya sərhədə məxsus bir anlayış və prosesdir. Görünür, Sergey Lavrov ya yorğunluqdan, ya da bilərəkdən Fərrux dağı ilə sərhəd arasında məntiqsiz paralel aparıb. Azərbaycanla-Ermənistan arasında sərhədlərin delimitasiyası bütün zolaqları əhatə edəcək və Bakının istinad etdiyi xəritələr əsas götürüləcək.

Azərbaycanın Ermənistanla sərhəddə möhkəmlənməsi və ya mövqelərini əhəmiyyətli dərəcədə irəli çəkməsi İrəvanın sülhməramlıların müvəqqəti yerləşdiyi ərazilərlə olan bağını itirir.

Bu, Azərbaycanın böyük hərbi-siyasi və iqtisadi basqısı altında reallaşır.

Belə olan təqdirdə, İrəvandan Qarabağla bağlı verilən bəyanatlar yalnız "gözə kül üfürmək" məqsədi daşıyır. Çünki Ermənistan Azərbaycanın yaratdığı mühasirənin miqyasını bilir. Çərçivədən kənara çıxma zamanı ona hansı "güllə" atılacağını da başa düşür".



# "Qızlar ərə gedəndən sonra ərinin narkoman olduğunu bilir"

## Novella Cəfəroğlu: "Bu bəlaya qarşı ən vacib mübarizə üsulu evlənəndə gənclərin həkim müayinəsindən keçməsidir"

**Son günlər yerlərdə narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı əhalinin məlumatlandırılması istiqamətində elmi-praktik konfranslar keçirilir. 26 İyun - Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü ilə əlaqədar təşkil edilən bu tədbirlərin əsas məqsədi ölkədə sağlam mühit və sağlam gələcəyin formalaşdırılmasına nail olmaqdır.**

Ayrı-ayrı rayon icra hakimiyyətlərinin təşkilatçılığı ilə baş tutan bu konfranslar eyni zamanda narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirilməsi, görülən işlərin ictimaiyyətə çatdırılmasına xidmət edir, ümumrespublika səviyyəsində aparılan maarifləndirmə işinin səviyyəsini yüksəldir. Ən əsası bu tədbirlər kütləvi informasiya vasitələrində işıqlandırılmaqla əhəmiyyətini daha da artırmış olur. Hər bir tədbirdə müvafiq qurumların təmsilçilərinin iştirakı, üzərlərinə düşən vəzifələrdən geniş bəhs etmələri və konkret nəticələri ortaya qoymaları növbəti tədbirlərin istiqamətini və əhatə dairəsini daha da genişləndirməyi bir növ tələbə çevirir.

Ekspertlər də hesab edir ki, narkomaniya ilə mübarizə sağlam cəmiyyətin formalaşması baxımından əsas məqsəd və vəzifələrdəndir. Azərbaycanın dövlət siyasətində başlıca vəzifə olan, sağlam nəslin formalaşması istiqamətində həyata keçirilən tədbirlər sırasında mühüm istiqamət kimi diqqət yetirilən narkomaniya ilə mübarizə kampaniya xarakterli deyil, davamlı siyasətdir.

Cəmiyyətdə "ağ ölüm" kimi tanınan narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaradır. Bu problemin həllinə xidmət edən mühüm addımlardan biri kimi xüsusi ilə yeniyetmə və gənclər arasında maarifləndirmə işlərinin genişləndirilməsi prioritet məsələdir.

Narkotizmlə mübarizə uzunmüddətli, çoxşaxəli bir prosesdir. Problemin ictimai təhlükəliliyi ondan ibarətdir ki, bir çox cinayətin törənmə səbəbləri arasında birinci sıralarda yer alan narkomanlığa aludəçilik həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və durmadan artır. Narkotizmin vəziyyəti və narkotik vasitələrin ümumi çəkisi rəsmi qaydada aşkar edilmiş cinayətlərdən və müsadirə edilmiş narkotiklərdən başqa, təqribi hesablamalara da əsaslanır. Bu rəqəmlərin dolğun olması üçün ölkədə əvvəlcə narkomanların düzgün qeydiyyatına nail olunur, daha sonra isə real əməliyyat şəraitinə uyğun tədbirlər keçirilir.

Qeyd edək ki, Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları tərəfindən növbəti dəfə narkotik vasitələrin satışı ilə məşğul olan və silahlı şəxslərə qarşı əməliyyatlar keçirib. Onlardan 23 kiloqram narkotik vasitə heroin, marixuana və 1590 ədəd metadon həbi, 2 ədəd lüləsi və qundağı kəsilmiş tüfəng aşkar edilərək götürülüb.

**Azərbaycanda narkomaniyanın doğrudan da tüğyan etdiyini deyən hüquq müdafiəçisi Novella Cəfəroğlunun sözlərinə görə, daha sağlam cəmiyyət üçün gənclər ailə qurmamışdan öncə həkim müayinəsindən keçməlidir:** "Hazırda ən böyük məsuliyyət qeyri-hökumət təşkilatlarının çiyninə düşür. Narkomaniya ilə mübarizə aparmaq üçün təşkilat nümayəndələri polislərlə birgə rayonlara, bölgələrə getməli, araşdırmalı, reydlər aparmalıdır. Televiziyalarda verilişlər təqdim edilməli, narkomaniya ilə mübarizəylə bağlı təbliğatlar aparılmalıdır. Narkomaniya genefondumuzu korlayır. Bu bəlaya qarşı ən vacib mübarizə üsulu evlənəndə gənclərin həkim müayinəsindən keçməsidir. Bizim qohumlarda da var, qızlar ərə gedəndən sonra ərinin narkoman olduğunu öyrənir. Yəni bunu əvvəldən bilməlidirlər. Bəzən məhəbbətdir, sevgidir, deyib göz yumurlar. Narkomaniya cəmiyyətin bəlasıdır. Çünki narkomanların övladları fiziki, əqli məhdudiyyətli doğulur".

**Şəymən**

# Türkiyə böyük bir nemət tapdı

## Yeni qaz yataqlarının kəşf edilməsi qardaş ölkə üçün faydalıdır, yeni qapıların açılması deməkdir

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Qara dənizdən hasil olunan təbii qazın 2023-cü ilin birinci rübündən etibarən məişət istehlakçıları tərəfindən evlərdə istifadə ediləcəyini deyib. Ərdoğan bildirib ki, gələn ay ilk qaz dənizin dərinliyindən çıxarılacaq: "Eyni zamanda, təbii qazı milli paylama şəbəkəsinə daşıyacaq quruda boru kəmərinin tikintisinə başlayırıq. İnşallah, noyabrın ilk həftələrində bunu başa çatdıracağıq.**

İlk qazdan evlərdə 2023-cü ilin birinci rübündən istifadə olunacaq. 2023-cü ildə sistemə gündə 10 milyon kubmetr qaz daxil olacaq". Qeyd edək ki, Türkiyə hasilata iki ilə başlamağı və ölkənin istehlakının üçdə birini Qara dəniz qazı ilə qarşılamağı planlaşdırır. "Sakarya" yatağı ötən il kəşf edilib. Ehtimal olunan ehtiyatları 405 milyard kubmetr olan bu yataqda növbəti illərdə 10 quyunun qazılması planlaşdırılır. Ümumilikdə, 2028-ci ilə qədər təxminən 40 quyunun qazılması gözlənilir. İlk illərdə hasilat 5-10 milyard kubmetr təşkil edəcək. 2025-ci ildə isə hasilatın 15 milyarda çatması planlaşdırılır. Bu, Türkiyədə son illərdə qaz istehlakının üçdə bir hissəsinə bərabərdir.





**Türkiyənin qaz istehsalçısına çevrilməsi ilə bağlı "Şərq"ə danışan iqtisadçı Pərviz Heydərov deyib ki, qardaş ölkənin yeni qaz yataqları kəşf etməsi dövlət və xalq üçün böyük bir nemət, mühüm tapıntıdır. Ekspert vurğulayıb ki, Türkiyə elə bir ölkədir ki, təbii resursları yox dərəcəsindəydi:** "Xüsusən mavi yanacaqdan asılılığa görə Türkiyə Avropada ən öndə gedən dövlətlərdən idi. Türkiyə Azərbaycandan, Rusiyadan mavi yanacaq alır. Hətta Qətərdən də qaz istədiyi deyilir. Belə şəraitdə Türkiyənin özündə yeni qaz yataqlarının kəşf olunması, bu sahədə müvafiq hasilat işlərinə başlanması, investisiya yolu ilə yataqların işlənilməsi qardaş dövlət və xalq üçün böyük perspektiv vəd edir. Amma nəzərə alaq ki, Türkiyə böyük ticarətə malik bir ölkədir və getdikcə böyüyən iqtisadiyyatın öz tələbləri var. O cümlədən əhalinin sayı da çoxalmaqdadır. Ona görə də Türkiyənin daxili tələbatı ödəmək üçün uzun müddət xaricdən mavi yanacaq idxal edəcəyi bəllidir. Hazırda Avropa ölkələri Rusiya qazından asılılığa son qoymaq üçün ciddi addımlar atırlar, alternativlər axtarırlar. Qərb qarşıya məqsəd qoyub ki, mümkün qədər tez zamanda rus qazından tamamilə imtina etsin. Bu fonda Türkiyənin yeni qaz yataqları kəşf etməsi də qardaş ölkə üçün faydalıdır, yeni qapıların açılması deməkdir. Türkiyə gələcəkdə Avropa ölkələri üçün qaz ixracatçısı rolunu oynamaq şansı əldə edə bilər".

**İsmayıl Qocayev**

# Yunanıstanı ABŞ cəsarətləndirir

## Ankara Egey dənizinin tamamilə Yunanıstanın əlinə keçməsini istəmir



**Türkiyənin Müdafiə naziri Hulusi Akar NATO-nun Siyasi Komissiyası ilə Aralıq dənizi və Yaxın Şərq üzrə Xüsusi Qrupun iclasında çıxış edib. O qeyd edib ki, aprelin 27-də Yunanıstan təyyarələri sərhədlərimizə daxil olaraq Datça, Didim və Dalamanda hava məkanımızı pozublar:**

"Siz o qədər kilometrlərlə uzaqdan, Yunanıstanın sərhədindən Türkiyənin sərhədinə gəlib hava sərhədimizi pozacaqsınız, bundan sonra da bizim necə reaksiya verəcəyimizi gözləyirsiniz? Bizdə bunların radar görüntüləri var, müttəfiq ölkələrlə də paylaşmışıq. Aprelin 28-də onlara cavab verdik".

Nazir Türkiyə ilə Yunanıstan arasındakı problemlərin həllinin danışıqlar yolu ilə baş tuta biləcəyini də vurğulayıb:

"Biz həmişə və israrla bildirmişik ki, problemlərin beynəlxalq hüquq, mehriban qonşuluq münasibətləri və dialoq yolu ilə həllinin tərəfdarıyıq".

**Vəziyyəti şərh edən analitik Turab Rzayev "Şərq"ə bildirib ki, rəsmi Ankara Egey dənizinin tamamilə Yunanıstanın əlinə keçməsini istəmir.**

"Yunanıstanın adaları silahlandırma cəhdi vəziyyətin daha da gərginləşməsinə səbəb olur. Digər tərəfdən adaların sahil xətti 3-6 km nəzərdə tutulur, lakin 12 km qədər uzadılması gözlənilir. Bu da Egey dənizinin 90 faizinin Yunanıstanın əlinə keçməsi deməkdir. Bu halda türk gəmiləri İstanbuldan Antalyaya, Manisaya, Mersinə getmək üçün Yunanıstandan icazə almalı olacaq. ABŞ-la imzaladığı sülh müqaviləsi Yunanıstanı cəsarətləndirir. Müqavilədə qeyd olunur ki, Yunanıstan hər hansı bir ölkə ilə hərbi münaqişə yaşasa, (Həmin ölkənin NATO üzvü olub-olmaması fərq etmir) ABŞ ona dəstək verəcək. Bizə sirr deyil ki, burada Türkiyə nəzərdə tutulur. Qardaş ölkə isə öz növbəsində bəyan edib ki, Yunanıstanın adaların sahil xəttindən 6 km-dən çox kənara çıxması və silahlandırması müharibə səbəbidir".

**Nihat Muzeffer**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği:**



# "15 iyun dövlətçilik tariximizin yeni mərhələsinin başlanğıcıdır"

Hikmət Babaoğlu: "Əminliklə deyə bilərik ki, 15 İyun Milli Qurtuluş Günü olmasaydı bu gün əldə etdiyimiz tarixi nailiyyətlərimiz və zəfərimiz də olmazdı"

**Xalqımızın taleyində əhəmiyyətli günlərdən biri də 15 İyun - Milli Qurtuluş Günüdür. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas oldu, inkişafın təməlləri qoyuldu.**

Umummilli liderin xalqımız və tariximiz qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, ölkəmizi parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Heydər Əliyev öz xilaskarlıq missiyası ilə ölkəmizin müstəqilliyini qorudu. Həmin ərəfədə Azərbaycan ciddi təhlükələrlə üz-üzə qalmışdı. Bir tərəfdən torpaqlarımızın işğal edilməsi, digər tərəfdən ölkə daxilində siyasi böhran, xaosun hökm sürməsi Azərbaycanı ciddi təhlükələrə doğru sürükləyirdi. Arzuolunmaz proseslər 1993-cü ilin iyununda özünün kulminasiya nöqtəsinə çatmışdı. Ovaxtkı hakimiyyətin səriştəsiz siyasəti nəticəsində Azərbaycan parçalanmaq, məhv olmaq təhlükəsi ilə üz-üzə qaldı. Cəmiyyətdə elə bir ümumi fikir yaranmışdı ki, ölkəni düşdüyü bu ağır vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir. Xalq öz dahi oğlunu təkidlə hakimiyyətə dəvət edirdi. 1993-cü il iyunun 9-da ulu öndər Heydər Əliyev xalqın çağırışına səs verərək Bakıya qayıtdı. İyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi. Böyük risklərə baxmayaraq, qurtuluş missiyasını cəsarətlə öz üzərinə götürdü. Məhz o səbəbdən 15 iyun haqlı olaraq tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Heydər Əliyev respublikada tüğyan edən ictimai-siyasi böhranı aradan qaldırdı. Ölkəmizdə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi. Respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Ümummilli lider problemlərin həlli üçün, ilk növbədə, bütün səylərini ölkədə vətəndaş həmrəyliyinin, sabitliyin təmin olunmasına yönəltdi və buna nail oldu, inkişafın təməllərini qoydu. Bu istiqamətdə ilk addım 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ilə atıldı. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə respublikamız qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Həyatın bütün sahələrində tərəqqi və dirçəliş baş verdi. 1995-ci ilin noyabrında demokratik, hüquqi dövlətin təməlini təşkil edən Konstitusiya qəbul olundu. Beləliklə, ölkədə daha genişmiqyaslı islahatlar aparılması üçün normativ-hüquqi bazanın formalaşdırılmasına start verildi. Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin uzaqgörən siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə 2003-cü ildən etibarən Azərbaycanın inkişafında yeni mərhələnin bünövrəsi qoyuldu. Ölkəmiz ötən 19 ildə uğurlu inkişaf yolu keçib, beynəlxalq miqyasda mövqelərimiz daha da möhkəmlənib. 2020-ci ildə Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsi nəticəsində işğal altında olan torpaqlarımızı azad etdi, işğalçı ordu məğlub oldu. Bu Qələbə tariximizə qızıl hərflərlə yazıldı. Təbii ki, bu Qələbədə xalq və cəmiyyət olaraq birliyimiz və həmrəyliyimiz də mühüm rol oynadı. Heydər Əliyevin xaos və anarxiyadan, dövlətçiliyin itirilməsi təhlükəsindən xilas edib dinamik islahatlar yoluna çıxardığı Azərbaycan hazırda onun layiqli davamçısı - Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib.

**Millət vəkili Hikmət Babaoğlu**

**"Şərq"ə deyib ki, müstəqil Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuş 15 iyun sadəcə təqvim bayramı deyil, böyük ictimai, siyasi və tarixi əhəmiyyətə malik bir gündür. Onun sözlərinə görə, böyük dövlət xadimi Heydər Əliyevin 1993-cü il iyunun 15-də yenidən hakimiyyətə qayıtması xalqımızın çoxəsrlik dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı oldu:** "Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması ölkə daxilində baş verən siyasi qarşıdurmaların, iqtisadi tənəzzülün, vətən torpaqlarımızın işğal edilməsi hadisələrinin yaratdığı kritik reallıqların zəruri şərti kimi ümummilli sifariş olaraq meydana çıxmışdı. Ulu öndər Heydər Əliyev tarix baxımından çox qısa bir müddətdə milli dövlətçiliyin sarsılmaz əsaslarını yaratmağa, Azərbaycanın müstəqilliyinin əbədi və dönməz xarakter almasına nail oldu. Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi xalqımızın nicatına yol açdı. Azərbaycan parçalanmaq və vətəndaş müharibəsi təhlükəsindən qurtularaq güclü bir dövlətə çevrildi. Ancaq 15 iyun təkcə ölkənin xaos və anarxiyadan xilas edilməsi, xarici və daxili düşmənlərin Azərbaycanı məhv etmək niyyətlərinin puça çıxarılması ilə məhdudlaşmır. Bu tarixi gün, eyni zamanda, Azərbaycanın dünya birliyinə qovuşması, dünya dövlətləri tərəfindən tanınması, beynəlxalq aləmdə layiqli yerini tutması ilə səciyyələnir. Ölkəmizdə 1993-cü ildən etibarən həyata keçirilən siyasi xəttin prioritetlərini təşkil edən dünyəvi, hüquqi dövlət quruculuğu yönümündə atılan addımlar demokratiyanın, insan hüquq və azadlıqlarının təməl prinsiplərinin bərqərar olunmasına zəmin yaratdı. Bu gün də həmin yol inamla davam etdirilir. Bu, Azərbaycan Prezidenti cənab İlham Əliyevin gərgin əməyi, səmərəli fəaliyyəti sayəsində mümkün olur. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük nailiyyətlər qazanır və bu nailiyyətlərlə hər bir vətəndaş üçün təhlükəsizlik və rifahın təminatçısıdır".

Deputat vurğulayıb ki, olduqca mürəkkəb bir regionda hazırkı inkişafa və sabitliyə nail olmaq yalnız 4 iyun hadisələrindən obyektiv dərs çıxarmaq və onun nəticələrini düzgün qiymətləndirməklə mümkün ola bilərdi: "Azərbaycan da bunu bacardı. Nəticədə 30 ilə yaxın erməni tapdağı altında qalan vətən torpaqlarımız işğaldan azad edildi. Azərbaycan Cənubi Qafqazın ən güclü dövlətinə çevrildi. Onun beynəlxalq münasibətlər sistemində yeri və rolu artdı. Hazırda isə bundan sonrakı tarixi inkişafımız üçün olduqca səmərəli perspektivlər yaradıldı. Ona görə də əminliklə deyə bilərik ki, 15 İyun Milli Qurtuluş Günü olmasaydı bu gün əldə etdiyimiz tarixi nailiyyətlərimiz və zəfərimiz də olmazdı".

**İsmayıl**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Biabırçı statistikanın şahidi oluruq

Təəssüf ki, primitiv yazma, oxumanı bilməyən məktəblilər hansısa rüşvət, tapşırıq əsasında növbəti təhsil pilləsinə keçə bilirlər

**2021-ci ildə IX sinif şagirdləri arasında yazıb-oxuya bilməyən şagirdlərin sayı 38 nəfər olub. Bununla bağlı məlumat "Abituriyent" jurnalının 12-ci sayında yer alıb. IX sinif şagirdləri arasında nəinki tədris proqramını minimum mənimsəyənlər, hətta oxuyub-yazmaqda çətinlik çəkənlər yaxud ümumiyyətlə bu istiqamətdə bacarığı olmayanlar aşkar edilib.**

Rayonlar üzrə oxuma və yazmağı bilməyən 9-cu sinif şagirdlərinin sayı aşağıdakı kimidir:

Cəlilabad - 5 nəfər, Goranboy və Ucar rayonlarının hərəsində 4 nəfər, Füzuli, Masallı və Tərtər rayonlarının hərəsində 3 nəfər, Lerik və Şəmkir rayonlarının hərəsində 2 nəfər və Ağcabədi, Balakən, Beyləqan, Gədəbəy, Kəlbəcər, Kürdəmir, Lənkəran, Oğuz, Salyan, Şirvan, Tovuz və Zaqatala rayonlarının hərəsində 1 nəfər.

**Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə deyib ki, ümumilikdə 38 şagirdin oxuyub, yazma qabiliyyətinin olmaması və həm də 9 və 11 illik bazada təxminən 50 mindən çox şagirdin 0-50 bal arası nəticə göstərməməsi təhsil adına olduqca aşağı göstəricidir:**

"Müasir dövrdə şagirdlərin öz bilik və bacarıqlarını imtahanlarda ifadə edə bilməməsi, oxuma və yazmasının olmaması təhsilin kifayət qədər keyfiyyətsiz olduğunu göstərir. Təbii ki, məsələ barədə Təhsil Nazirliyi (TN) yanında İctimai Şura, Rayon Təhsil Şöbələri, Regional Təhsil İdarələri və s. müvafiq işlər aparmalıdır. Şagirdlərin oxuyub, yazma bacarıqlarının inkişaf etdirilməsi ilə bağlı təməl bilgiləri məktəbəqədər, ibtidai təhsil pilləsində öyrədilməlidir və öyrədilir.

Amma təəssüf ki, hazırda bu "biabırçı" statistikanın şahidi oluruq. Məktəblilərin müəyyən biliklərinin kafiliyi onların növbəti təhsil mərhələsinə keçməyə əngəl olmalıdır. Amma müşahidələrə görə, primitiv yazma, oxumanı bilməyən məktəblilər hansısa rüşvət, tapşırıq əsasında müəyyən təhsil pilləsinə atlaya bilirlər. Bu isə yolverilməz haldır. İndiki zamanda əgər 9-cu sinifdə oxuyan şagird lazımi bacarıqlara sahib deyilsə, deməli, tədris prosesində məktəb rəhbərliyi, müəllim ona formal qiymət yazıb. Nəticədə bu gün imtahan verə bilmirlər.

Daha çox 9-cu sinfə qədərki tədris prosesində oxuyan şagirdlərin təhsildən yayınma halları regionlarda mövcuddur. Bunun üçün də müvafiq qurumlar əməli addımlar atmalıdır. İnformasiya texnologiyalarının inkişaf etdiyi dövrdə bu kimi vəziyyətlər arzuolunmazdır".

**Sücayət Mehti**

# "Dərsliklərlə bağlı iradların 75 faizi qəbuledilməzdir"

Rafiq İsmayılov: "Tənqidləri səsləndirənlər köhnə nəsil dərsliklərini oxuyub-öyrəniblər, biz isə şagirdlərə yeni nəsil dərsliklər üzərində işləməyi öyrədirik"

**Son dövrlər dərsliklərin məzmun və keyfiyyəti, eləcə də həcmi ən çox müzakirə edilən, barəsində tənqidi fikirlər, rəylər bildirilən məsələlərdən biridir.**

Şagirdlərin istifadə etdikləri dərsliklərin keyfiyyətinin yüksəldilməsi, məzmununun təkmilləşdirilməsi sahəsində mövcud problemlərin aradan qaldırılması üçün Təhsil Nazirliyi müəyyən addımlar atsa da, narazılıqlar səngimir. Mövzuya toxunan Təhsil naziri Emin Əmrullayev isə ölkədə dərsliklərin hazırlanması ilə bağlı mütəxəssis çatışmazlığı olduğunu deyib. Təhsil Nazirliyinin 300-dən çox dərslik hazırladığını vurğulayan E.Əmrullayev qeyd edib ki, Təhsil Nazirliyi dərslik yazmır, onu müəlliflər hazırlayır: "Nazirlik həmin dərslikləri elektron bazaya yerləşdirir: "Dərslik sahəsində mütəxəssis hazırlığı da çox vacib işdir. Bu istiqamətdə Sinqapurla, digər ölkələrlə əməkdaşlıq edirik. Bu iş asan məsələ deyil. Ölkədə dərslik hazırlanması sahəsində mütəxəssis çatışmazlığı var. Təbii ki, Azərbaycanda insanların bildiyi və bilmədiyi şeylər haqqında danışması ayıb sayılmadığı üçün burada müəyyən rəylər də var. Amma biz bütün rəylərə hörmətlə yanaşırıq. Amma istəyirəm biləsiniz ki, Təhsil Nazirliyində peşəkar rəyi emosional əsası olmadan rəydən ayırmaq qabiliyyətimiz də var. O nöqteyi-nəzərdən yavaş-yavaş dərsliklərdəki obyektiv çətinliklərin aradan qaldırılması ilə şagirdlərimizə daha yaxşı dərsliklər verə biləcəyimizə inanıram".

**"Altun kitab" nəşriyyatının direktoru, filologiya üzrə fəlsəfə doktoru Rafiq İsmayılov da "Şərq"ə açıqlamasında nazirin haqlı olduğunu deyib:** "Ölkəmizdə dərsliklərin hazırlanması ilə bağlı çox ciddi mütəxəssis çatışmazlığı var. Bu sahədə sistemsizliyin mövcud olması əsas problemlərdən biridir. Bizdə dərslik yaza biləcək kadrların yetişməsi üçün lazımi mühit yoxdur. Dərslik tərtib etmək və onu ərsəyə gətirmək bir-iki müəllifin işi deyil. Prosesdə fənn müəllimi, pedaqoq, psixoloq, dizayner, rəssam, redaktor, korrektor iştirak edir. Və bütün bu insanları bir ara yığıb onların işini koordinasiya edib düzgün yönləndirəcək peşəkar mütəxəssis olur".

Dərsliklərdəki qüsurlarla bağlı narazılıqlara gəldikdə isə R.İsmayılov cəmiyyətin dərsliklərə və müəlliflərə qarşı münasibətinin adekvat olmadığını bildirib. Onun fikrincə, cüzi bir səhv sosial şəbəkələrdə, mediada çox qabardılır: "Filan dərslikləri tədrisə yararsızdır və onlar yenidən hazırlanmalıdır deyə absurd iddialar ortaya atılır. Ən maraqlısı da odur ki, ortada əsaslı bir fakt yoxdur. Həddən çox orfoqrafik səhv olduğundan dərslikləri "yararsız" hesab edirlər. Hardan götürdülər bu səhvi? Bunu göstərsinlər biz də razılaşaq. Sözsüz qəbul etdiyimiz iradlar var, hansı ki o iradlar bu sahəni bilən ekspertlər və mütəxəssislər tərəfindən səslənir. Yoxsa ki, təsadüfi halda buraxılmış texniki qüsura görə bunu şişirdib "yararsızdır" demək düzgün deyil. İradların təxminən 75 faizi qəbuledilməzdir. Onları qəbul etsək, dərslik pisliyə doğru dəyişər. Texniki, xüsusən də nöqtə-vergül səhvlərinə görə dərslikləri məqbul saymamaq haqsızlıqdır. Yenə deyirəm, bəzən ayrı-ayrı faktlarla bağlı səsləndirilən iradlarla razılaşmalı oluruq.



*"Texniki, xüsusən də nöqtə-vergül səhvlərinə görə dərslikləri məqbul saymamaq haqsızlıqdır. Yenə deyirəm, bəzən ayrı-ayrı faktlarla bağlı səsləndirilən iradlarla razılaşmalı oluruq"*

Ancaq konsepsiya ilə bağlı fikir bildirən müəllimlərin bir əlində dərslik olanda, bir əlində də kurikulumu tutmasını istəyərdim. Yəni "müəllif niyə belə yazıb" deyənlərdən xahiş etmək istərdim ki, özlərinə "kurikulumda bununla bağlı nə yazılıb" sualını da versinlər. Belə olsa, onlar bir çox sualların cavabını tapacaqlar və bəzi iradlar aradan qalxacaq. Müasir dərsliklər haqqında fikir yürüdülərkən iki əsas məqama diqqət yetirilir: dərslik nəyi öyrədir və necə öyrədir?

Mən öz dərsliklərimdə dünyada qəbul olunmuş prinsipləri tətbiq etməyə çalışıram, amma ictimaiyyət bu yeniliyi qəbul etmir. Azərbaycan dilinə qarşı ənənəvi baxış var. Əsas dil-üslub qaydalarına üstünlük verilir. Guya müəlliflər ana dilimizə, dilimizin qrammatik normalarına milli-mənəvi dəyərlərimizə barmaqarası baxır, ana dilinin üslub qaydalarının şagirdlərə öyrədilməsində maraqlı olmurlar. Müasir dil dərsliyi informasiyanı almaq və ötürmək üçündür, yəni ünsiyyəti öyrədir. Bu da dinləmək, danışmaq, oxu, yazı sayəsində mümkündür. Məqsəd bu 4 nitq bacarığını inkişaf etdirməkdir. Amma müəllimlərin "Azərbaycan dili" dərslikləri ilə bağlı qeyd etdikləri iradların çoxu dil qaydalarının azlığı ilə bağlıdır. Bəziləri isə mətnlərin çoxluğundan şikayətlənir, bu mənada bizim dərsliklərin daha çox ədəbiyyat dərsliklərinə oxşadığını bildirirlər. Bir çoxları istəyir ki, mətnlər azalsın, dil qaydaları çoxalsın. Bu gün dilin tədrisində dil qaydaları son məqsəd deyil, nitq bacarıqlarına yiyələnmək üçün vasitədir. Kurikulumun tələbinə görə dilçiliyi elə səviyyədə öyrətməliyik ki, o, dinləmə, danışma, oxu və yazı bacarıqlarının inkişafına kömək etsin. Ona görə hər zaman deyirəm ki, dərsliyi təhlil etmək sırf peşəkarların işidir. Valideynlərin, müəllimlərin qüsur kimi görüb qabartdığı məsələlərə baxanda görürsən ki, burada heç bir səhv yoxdur. "Altun" nəşriyyatının dərsliklər barədə də çox danışır, emosional tənqidlər edilir. "Bərbad" olduğu iddia edilən dərsliklə bağlı ortaya bir tutarlı fakt qoyan olmur ki, hansı cümlədə qrammatik səhv gedib. Ancaq ki, qulaqdan eşitmə əsassız səhvləri şişirdirlər. Hansı ki peşəkar gözüylə baxanda orada heç bir səhv olmadığı aydın olur".

**Nəşriyyat direktorunun sözlərinə görə, dərsliklə bağlı fikir söyləyərkən bu cür emosional sözlərdən uzaq olmaq, daha çox konstruktiv fikir söyləmək və onu arqumentlərlə əsaslandırmaq daha yaxşı olar:** "Əslində, dərsliklərimizdə şagirdlərə aşılamaq istədiyimiz əsas bacarıqlardan biri də elə budur. Biz dərslik müəllifləri çalışırıq ki, dərslikdəki materiallar uşaqlarda təfəkkürün inkişafına xidmət etsin, onların beyinləri lazımsız biliklərlə yüklənməsin. Bu, kurikulumun tələbidir. Bu tələblərə uyğunlaşmaq müəllimlərdən gərgin əmək tələb edir. Onlar unutmamalıdırlar ki, son məqsəd məzmun standartlarıdır, dərslik bu standartların reallaşdırmaq üçün bir vasitədir.

Dərslik sahəsindəki problemlərin həlli ilə bağlı İngiltərə, Sinqapur və Koreya ölkələri ilə əməkdaşlıq edilir. Amma bu ölkələrin dərslik mexanizmini olduğu kimi ölkəyə gətirmək çıxış yolu deyil. Çünki həmin ölkələrin özündə də cəmiyyətin dərsliklərə qarşı münasibəti birmənalı deyil".

Dərsliklərin dilinin qəliz olması ilə bağlı iddialara gəldikdə isə R.İsmayılov deyib ki, bu tənqidləri səsləndirən valideynlər köhnə nəsil dərsliklərdən oxuyub-öyrəniblər. "Biz isə şagirdlərə yeni nəsil dərsliklər üzərində işləməyi öyrədirik. Əvvəllər ehtimal nəzəriyyəsinin statistikası anlayışı yox idi. İndiki valideynlər də dərsliklərdə diaqramlara, ehtimal nəzəriyyəsinə rast gələndə elə bilirlər şagirdərə yaşlarının üstündə terminlər aşılayırıq. Halbuki, xarici ölkələrdə bu terminlər birinci siniflərə tədris olunur. Biz çalışırıq ki, öz dərsliklərimizdə qabaqcıl ölkələrin təhsil sisteminə inteqrasiya olunaq, amma cəmiyyətin böyük bir kəsimi bu yeniliyi qılınc-qalxanla qarşılayır. Düşünürəm əsas problem dərsliklərdə yox, düşüncələrdədir".

**Şəymən**

# Müəllimlər direktorların, şagirdlərin və valideynlərin hədəf taxtasına çevrilib



**Ruhiyyə Daşsalahlı:** ”Sinif otaqlarından neqativ görüntülər təkcə müəllimin, məktəbin yox, həm də bir ailənin görüntüsüdür”

**Jalə Mütəllimova:** “Tədrisdə də milli təhsil ideologiyası olmayanda keyfiyyətsiz nəticə ilə qarşı-qarşıya qalırıq”

**Təhsil eksperti Kamran Əsədov feysbuk hesabında şagird özbaşınalığı ilə bağlı paylaşım edib. Bölüşdüyü videoda şagirdlər müəllimə cavab qaytarır, ”söz güləşdirir”, qışqırır. Həmçinin məktəbli telefonla danışan müəllimə yaxınlaşıb, telefon danışığını dinləyir. Digər çəkilişdə isə məktəbli boş sinfə daxil olur, partaları qaldırıb, yerə çırpır.**

K.Əsədov yazıb:

”Məşhur bir musiqi var, sözləri belədir: Hamamın içində, içində və çölündə...

Bildiyiniz kimi, dünən gecə saatlarında Şamaxı-Bakı yolunda şagirdlərin də olduğu avtobus qəzaya uğrayıb və xəsarət alanlar var. Rəsmilər deyir ki, biz məktəbin çölünə, istirahət günlərində nəzarət edə bilmərik. Bəli, bu tutaq ki, belədir.

Bəs axı siz heç içinə də nəzarət edə bilmirsiniz. İçində olan vəziyyət avtobus qəzasından daha betərdir”.

**Məsələ ilə bağlı fikirlərini ”Şərq”lə bölüşən jurnalist Ruhiyyə Daşsalahlı bildirib ki, K.Əsədov paylaşdığı videolarda iki nümunə təqdim edib:**

”Birində müəllim olan, digərində boş bir sinif. Hər ikisinin də qəhrəmanları uşaqlarımız, gələcəyimizin sahibləridir. Yaşlarını göz önündə saxlasaq, üstünə də müəllimlərə mövcud basqını gəlsək, bu görüntülərdə məktəblə yanaşı, valideynlərin verdiyi tərbiyənin sorğulanmasının tərəfdarıyam. Əks halda, yanaşmamız birtərəfli olacaq. Pəncərələrin şüşələrini sındıran şagird, partalara hücum edən məktəbli, müəllimin önünə içərisində həşəratlar olan qutu qoyan dəcəl uşaq həmişə görmüşük və görəcəyik. Müəllimin əlini itələyən şagird də yeni deyil. Uşağının nadincliyinə görə məktəbə çağrılan valideyn də var. Çünki mövzu əksəriyyəti yeniyetmə yaşlardakı uşaqlardır. Telefon müasir dərsin, cəmiyyətin, ailələrin bir nömrəli problemidir. Daha doğrusu, telefon yox, ondan necə istifadə etməyi bilməməyimiz və uşaqlarımıza öyrətməməyimiz”.

*R.Daşsalahlı diqqətə çatdırıb ki, hörmətli təhsil ekspertimizdən fərqli olaraq, müəllimləri ittiham etmək, dara çəkməyin əleyhinədir:*

”Çünki bu nümunələr təkcə müəllimin, məktəbin yox, həm də bir ailənin görüntüsüdür. Ümumiyyətlə, belə çəkilişləri paylaşmaq sadəcə cəmiyyətimizin sıxışdırmağa labüd bildiyi müəllim axtarışıdır. Müəllimlər direktorların, şagirdlərin, valideynlərin hədəf taxtasına çevrilib. Yetmirmiş kimi, biz jurnalistlər də təzyiq göstərənlər sırasına qoşulmuşuq. Bununla yanaşı, özümüzün idarə edə bilmədiyimiz övladlarımıza rəhbərlik etmək iqtidarında olan müəllim arayışında olduğumuzu anlaya bilirəm. Ancaq uşaqlarımızı vurmadan, təhqir etmədən idarə edən, dərsə müasir təhsilin tələbləri çərçivəsində yanaşan, müəllimlərin sayının hər zaman az olacağını düşünürəm. Kamran müəllimin nəzarətdən kənar sinif və məktəb kimi təqdim etdiyi belə nümunələr hər zaman olacaq. Lakin məsələn, sertifikasiya başa çatandan sonra K.Əsədovun paylaşmağa video tapmayacağına ümid edirəm”.

**Jurnalist Jalə Mütəllimova isə qeyd edib ki, cahil və savadsız insanları əldə etmək üçün təhsili zəif salmaq lazımdır:** ”Tədrisdə də milli təhsil ideologiyası olmayanda keyfiyyətsiz nəticə ilə qarşı-qarşıya qalırıq. Bu gün Azərbaycanın milli təhsil ideologiyası yoxdur. Bu səbəbdən nəticə də keyfiyyətsiz olur. Orada təhsil alan insanlar, məktəb rəhbərliyi və müəllimlər də əziyyət çəkir. Dövlətimiz 30 illik müstəqillik dönəmində ən böyük maddi və mənəvi gücünü Qarabağın işğaldan azad olunmasına sərf edib. Bu gün də iqtisadi, siyasi əlaqələr son dərəcə güclü qurulub. Bundan sonra Qarabağ məsələsi ilə bağlı ölkəmizin ideoloji kursu, xətti doğruldu. Azərbaycanın qələbəsi, möhkəmlənməsi və güclənməsi ilə yekunlaşdı.

Hazırda Azərbaycan Cənubi Qafqazda lider dövlətdir. Postsovet ölkələri ilə Türkiyənin əlaqələrini quran və Avropa üçün ən böyük tranzit cənubi Qafqaz ölkəsidir. Həmçinin Rusiya üçün vacib strateji müttəfiqdir.

Ancaq paralel şəkildə Türkiyə istisna olmaqla Azərbaycanı istəməyən xeyli sayda güclər var. İndiki mövqeyi və siyasi gücü dövlətimizin bir çox yaxın, uzaq qonşularını narahat edir, maraqlarına cavab vermir. Ona görə də dil, cinsi azlıq faktorunu qabardırlar və milli etnik zəmində məsələlərə hərdən keçidlər olur. Amma real görünən məsələ deyil.

Çünki Əlikram Hümbətov dönəmində Azərbaycan bu məsələni birmənalı şəkildə həll edib”.

**Sücayət Mehti**

## Təbrik edirik!



Əziz oğlum **Eldar!** Artıq bəzən dəlisov, bəzən dəcəl hərəkətlərlə dolu olan məktəbli günlərin başa çatdı. Uşaqlığa son qoymağın ilk addımlarını atırsan. Daha həyatının qayğılı-məsuliyyətli günləri başlamaq üzrədir. Əziz balam, iki yol ayrıcında olacaqsan - işıqlı və qaranlıq. Bu yollardan hansını seçəcəyin öz əlindədir. Yəqin ki, hər iki halda sənin yanında olmaq borcumuzdur. Lakin unutma, valideynlər övladlarının yanında əbədi qala bilməz. Atan sənin əlinə bir açar verəcək, amma hansı qapını aça biləcəyin yalnız səndən asılıdır. Səndən bir istəyimiz, tələbimiz var, bizi uğurlarınla sevindir. Bizlər səni sevdiyimiz qədər sən də bizə öz ağlınla, dürüstlüyünlə dəyər ver. Bundan sonra da təhsilində atdığın addımlarda sənə uğurlar arzulayıram. Sən balaca olanda saçıma ağ düşərkən 5 qiymətlə gələrdin evə, deyərdin daha ağarmayacaq? İnan ki, bundan sonra da mənim və atanın xoşbəxt olmamız həm də sənin əlindədir. Güvənimiz, qürurumuz, sevinərək adını çəkdiyimiz Eldarım, Allahın nəzəri daim üzərində olsun.

***Ən xoş diləklərlə anan Mina.***



## Aysel Pərvizdən küsüb

“Ondan bunu gözləmirdim”

**”İnsan hər zaman diqqəti önəmsəyir. ”Survivor”a əvvəl baxırdım, sonra yox. Pərvizi dəstəkləmişəm, istəmişəm birinci olsun. Amma indi ondan küsmüşəm, danışmıram”.**

Bu sözləri müğənni Aysel Əlizadə ”Şourum” verilişində deyib. Sənətçi kikboks üzrə 6 qat dünya çempionu Pərviz Abdullayevlə küsülü olduğunu deyib. O bildirib ki, Pərviz ”Survivor”da olan zaman ona qarşı haqsızlıq edib:

”Orada konsert oldu, Pərviz ”Yandırdı qəlbimi” oxudu. Amma qeyd etmədi ki, Azərbaycan mahnısıdır və mən oxumuşam. Mən yox, bir başqasının ifasında sevilsin, yenə deyilməlidir. Pərvizlə biz uzaqdan yox, yaxın tanışıq. İstanbulda olanda pandemiyada arada görüşürdük, münasibətimiz yaxşı olub. Bunu gözləmirdim. O diqqəti gözləyirdim. İfamın adının deyilməsini istəyirdim”.



## Repetitorlar elanlarında ciddi səhvlərə yol verir

Belə müəllimlərə heç kim uşaq etibar etməz

**Hər gün təhsilimizdə kütləvi tənqidə tuş gələn yeni bir hadisə baş verir.**

Bu dəfə bir müəllimin paylaşdığı elan ciddi reaksiya ilə qarşılanıb. Elanda repetitorluq fəaliyyəti göstərməsi barədə məlumat verən müəllim ciddi səhvlərə yol verib. Onun bu səhvləri sosial media istifadəçiləri arasında gülüş obyektinə çevrilib. Gündəmdə olan bir digər məsələ isə 234 nömrəli tam orta məktəbin ad lövhəsində ”tam orta” sözlərinin bitişik yazılmasıdır. Təhsil ocaqlarının və təhsil verən şəxslərin hansı səbəbdən bu kimi səhvləri etməsi bütün ictimaiyyətə maraqlıdır.

**Təhsil eksperti Kamran Əsədov sözügedən elan haqqında ”Şərq”ə danışıb. O bildirib ki, küçələrdə olan repetitorluq elanlarında ciddi orfoqrafik səhvləri görürük:** ”Bloklarda, informasiya lövhələrində rast gəldiyimiz yazılarda müşahidə edirik ki, bu və ya digər xidməti göstərən müəllimlər çox təəssüf ki, orfoqrafik qaydalara riayət etmədən yazı yazırlar. Bu, həqiqətən bizdə təəssüf doğurur. Fikrini düzgün ifadə edə bilməyən şəxslər bu xidməti necə göstərəcəklər? Bəzi hallarda bu elanları çap yerlərində yazırlar. Amma hər halda bu şəxs müəllimdir. Müəllim özü ilə bağlı elan verirsə, yaxşı olar ki, dil qaydalarına riayət etsin. Xüsusən ali təhsilli və uşaqlara ilkin oxumağı, yazmağı öyrədəcək şəxs mütləq şəkildə özündə bu bilik bacarıqlara sahib olduğunu göstərməlidir. Yaxşı olar ki, orfoqrafik qaydalara riayət edən, aydın və anlaşılan informasiyalara üstünlük verilsin”. K.Əsədov inanır ki, bu tip elanları görən valideynlər bu xidməti göstərən müəllimlərə müraciət etməyəcəklər: ”Çünki normal reklamı yazıb, onu yoxlaya bilməyən şəxs, şagirdin də tapşırıqlarını yoxlaya, onun normal bilik-bacarıqlarına yiyələnməsinə malik ola bilməyəcək”.

**Çimnaz Şahlar**

# 282 uşaqdan "tər testi" götürülüb

İrsi yolla keçən kistoz fibrozun müayinəsi və müalicəsinə başlanılıb

**”Kistoz fibroz (kistik fibrozis) xəstəliyinin erkən diaqnostikası məqsədilə 2021-ci ilin aprel ayından 2022-ci ilin may ayının sonunadək həkim təyinatına uyğun olaraq uşaqlar arasında 282 ”tər testi” aparılıb”. Bu sözləri K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktor müavini, pediatr Azər Əhmədov deyib.**

Pediatrın sözlərinə görə, icbari tibbi sığortanın Xidmətlər Zərfi ilə təminata alınan həmin müayinəyə əsasən, erkən yaş dövründə olan uşaqlar cəlb olunub. ”Tər testi”ndə iştirak edənlərin 46-sı 1 yaşa qədər olan körpələr, 123-ü 1-3 yaş arası, 53-ü 3-6 yaş arası, 60-ı isə 6 yaşdan yuxarı olan uşaqlardır: ”Müayinələr zamanı 27 nəfərin test nəticəsi müsbət, 49 nəfərinki şübhəli, 206 nəfərin test nəticəsi isə mənfi çıxıb. Kistik fibrozis diaqnozu təsdiqlənən uşaqlar Uşaq Klinik Xəstəxanasının Kistoz Fibroz Mərkəzində qeydiyyata alınır. Burada onlar qidalanma, fiziki inkişaf və tənəffüs göstəriciləri ilə bağlı həkim tərəfindən mütəmadi kontrol müayinələrə cəlb olunurlar. Hazırda Mərkəzdə kistoz fibroz diaqnozu təsdiqlənmiş 43 uşaq qeydiyyatdadır.

Hazırda ”tər testi” TƏBİB-in tabeliyindəki Bakı şəhərində fəaliyyət göstərən K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu və Uşaq Klinik Xəstəxanasında aparılır. Kistoz fibroz - irsi yolla keçən və metabolizm prosesinin pozulması nəticəsində yaranan xəstəlikdir. Həmin xəstəliyin körpənin həyatının ilkin dövründə müşahidə olunan əlamətlərinə yenidoğulmuşda uzun müddət davam edən sarılıq, düz bağırsağın sallanması, xroniki diareya, öskürək, təngnəfəslik, pnevmoniya, dəridən duzlu dad gəlməsi, fiziki inkişafın ləngiməsi və s. aiddir. Xəstəliyin məktəbəqədər, məktəb yaşlı uşaqlarda və yeniyetmələrdə simptomları fərqli olur”.



***Səadət Bayramova: "Kistoz fibroz nadir autosom ressesiv verən genetik xəstəlikdir"***

**”Kistoz Fibroz Xəstələrinə Yardım” İctimai Birliyinin rəhbəri Səadət Bayramovanın sözlərinə görə, kistoz fibroz nadir autosom ressesiv verən genetik xəstəlikdir:** ”Daxili sekresiya ifraz edən orqanlar: ağciyər tənəffüs sistemi, həzm sistemi orqanları, tər vəziləri, cinsiyyət üzvlərini zədələyən, zamanla fəaliyyətdən geri qoyan, erkən diaqnoz qoyulmayıb təcili nəzarətə alınmazsa ölümə aparan ağır xəstəlikdir. Azərbaycanda tanınmır, diaqnostikası ilə geniş məşğul olunmur, bu səbəblərdən xəstələrin sayı məlum deyil”.

S.Bayramovanın fikrincə, kistoz fibrozun diaqnozu tər testi ilə paralel olaraq Neonatal skrininq (daban qanı testi) və genetik testlə müəyyən edilir: ”Tər testi kistik fibrozisin kilinik diaqnozunun önəmli bir parametridir. Testin əsası tərdə elektrolit konsentrasiyasını ölçməyə söykənməkdədir.

Müayinənin əsas məqsədi uşağın inkişafdan qalma səbəbini təyin etmək və bədəndə çatışmayan elektrolit element olan NaCl-un miqdarını təyin etməkdir. Sağlam uşaqlarda NaCl-un konsentrasiyası tərdə 40 mmol/l-dən yuxarı olmur. Bəzi uşaqlarda isə heç 20mmol/l-ə çatmır. Əgər 40-60 mmoll arasındadırsa, təkrar tər testinə ehtiyac var. Nəticə 60-dan yuxarıdırsa artıq uşağın müalicəyə ehtiyacı var. Bu test vasitəsilə mukovisidozu vaxtında aşkarlayıb müalicə etmək olar. Qeyd edək ki, xəstəliyin əlamətləri tez-tez və davamlı öskürək, çox miqdarda bəlğəm, tez-tez təkrarlanan xırıltılı tənəffüs etmə,

sətəlcəm və bronxit kimi tez təkrarlanan ağciyər infeksiyaları, nəfəs alma və vermədə məcburi çətinlikdir. Eyni zamanda oynarkən tez yorulma, nəfəs daralması, yeni doğulmuş körpənin ilk nəcisinin qatı və bağırsaqlara yapışması səbəbi ilə nəcisin çıxarılmaması, bağırsaqların genişləməsi ilə bağlı olaraq qarın ağrısı və qarında narahatlıqlar, bağırsaq tıxanmalarıdır. Xəstələrin iştahları yaxşı olmasına baxmayaraq çəki almaq əvəzinə çəki itirir”.

**Şəymən**

”Azinteroil” MMC-nin nizamnaməsinin 9.1-ci bəndinə əsasən 22.06.2022-ci il tarixdə, saat 14:00-da, Bakı şəhəri, Nərimanov rayonu, Y.V.Çəmənzəminli küçəsi 16 ünvanında ”Azinteroil” MMC-də 2019-2022-ci illər üzrə keçirilməli olan auditor yoxlamalarının nəticələrinin müzakirəsi və cəmiyyətin direktoru İbrahimov Heydər Mustafa oğlunun göstərilən illər üzrə fəaliyyətinin yoxlanılması və bununla bağlı müvafiq qərarların qəbulu daxildir. Əlaqə nömrəsi: (050) 204-60-07

# Təkrar hərrac barədə elan

Ləğv prosesində olan ”Standard Insurance” Sığorta Şirkətinin Ləgvetmə komissiyasının 19.05.2022-ci il tarixli, 19/05/2022 saylı sifarişi ilə ləğvetmədə olan Sığorta Şirkətinə məxsus rekonstruksiya işlərindən sonra birləşdirilmiş, Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 20 (ümumi sahəsi 56.6 m2), Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 49 (ümumi sahəsi 46.5 m2), Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi, ev 251, mənzil 50 (ümumi sahəsi 52.7 m2) və Bakı şəhəri, Nəsimi rayonu, Şəmsi Bədəlbəyli küçəsi, ev 96, mənzil 65 (ümumi sahəsi 114.7 m2) ümumilikdə sahəsi 270,5 m2 olan 4 (dörd) mənzilə dair 14 iyun 2022-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş təkrar hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin mənzillər ilkin satış qiyməti olan 875.000 (səkkiz yüz yetmiş beş min) manatdan 10% aşağı olmaqla, yəni 787.500 (yeddi yüz səksənyeddi min beş yüz) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 01 iyul 2022-ci il tarixi, saat 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 1%-i, yəni 7.875 (yeddi min səkkiz yüz yetmiş beş)manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac sifarişçisinin aşağıda göstərilən hesablaşma hesabına ödənilməlidir.

Adı: Ləğv prosesində olan ASC ”Standard Insurance” Sığorta Şirkəti

Hesab №: AZ52PAHA35090AZNHC0190000581

VÖEN: 1300115641

Bank Adı: Paşa Bank ASC

Kodu: 505141

VÖEN: 1700767721

Müxbir hesab: AZ82NABZ01350100000000071944

S.W.I.F.T. PAHAAZ22

Hərrac addımı - elan edilmiş qiymətin ən azı 1 %-i qədər olmalıdır.

Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən azı 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır:

* Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq);

* Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd;

* Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

* Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

Açıq hərrac Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 415-ci maddəsinin və LPO ASC ”Standard İnsurance” Sığorta Şirkətinin əsas vəsaitlərinin açıq (və ya qapalı) hərracda satışı üzrə sifarişlərin verilməsi, hərracın təşkili, keçirilməsi və rəsmiləşdirilməsinin prosedur Qaydaları”nın tələblərinə uyğun həyata keçiriləcəkdir.

LPO ASC ”Standard İnsurance” Sığorta Şirkətinin əsas vəsaitlərinin açıq (və ya qapalı) hərracda satışı üzrə sifarişlərin verilməsi, hərracın təşkili, keçirilməsi və rəsmiləşdirilməsinin prosedur Qaydaları” ilə hərrac təşkilatçısının rəsmi internet səhifəsinin (www.e-herrac.com) qanunvericilik bölməsindən tanış ola bilərsiniz.

**Hərracın təşkilatçısı ”Əmlak Hərrac Mərkəzi” MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22; (+99455) 745-25-56**

**e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**

**Sifarişçinin əlaqə telefonları: 050-253-33-05 ; 055-213-51-35**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Aynurə Pənahqızı, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1703



# İstanbulda avtomobil evin içinə girdi

3 uşaq yaralanıb

**İstanbulda avtomobil sürüşərək evə daxil olub.**

Qəza səhər saat 12.30 radələrində Kağıthane Papatya küçəsində baş verib.

Mehdi Milasın istifadə etdiyi avtomobil sükanının kilidlənməsi səbəbindən sürüşərək evin divarına çırpılıb.

Bu arada evdə olan 3 uşaq yüngül xəsarət alıb. Vətəndaşların xəbəri ilə hadisə yerinə yanğınsöndürən və sağlamlıq qrupu gəlib. Yaralanan 3 uşaq təcili yardımla xəstəxanaya aparılıb.

Sürücü Mehdi Milas "Maşını saxlaya bilmədim. Dedim ki, maşınları vurmayaq. Dönərək evə girdim. Qəza zamanı maşında heç kim yox idi. Yol bağlı idi, sağa dönə bilmədim". Məhəllə sakini Cemile Yalçın: "Burada dəmir dirəklər olmasaydı, daha pis hadisələr baş verə bilərdi. Evdə divanda üç uşaq oturmuşdu. Dəmir olmasaydı, uşaqlar maşının altında ölə bilərdi".

**Turan**

# Nəqliyyatın önünü kəsib, idman etdi

Şübhəli əcnəbinin deportasiyası üçün tədbir görüləcək



**İstanbul Sultanqazinin ən işlək küçəsi olan Eski Ədirnədə asfaltın üzərində təkanla hərəkət (jim) edən şəxs saxlanılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Sultanqazidə yolun ortasında hərəkəti dayandıraraq asfaltın üzərində üzüüstə təkanla hərəkət edən əcnəbi vətəndaş polis tərəfindən saxlanılıb.

Məlumata görə, Eski Ədirnə küçəsində avtomobillərin qarşısında yolda təkanla hərəkət edən Pakistan əsilli Əli R. həmin anların videosunu sosial media hesabında paylaşıb.

Görüntülər sosial şəbəkədə yayıldıqdan sonra işə başlayan polis şəxsiyyətini müəyyən etdiyi bu şəxsi iş yerində saxlayıb.

"Yol hərəkəti təhlükəsizliyinə təhlükə törətmək" cinayətinə görə cəza alan şübhəlinin ölkədən çıxarılması üçün tədbir görüləcəyi bildirilib.

**Turan**



# Möcüzə nəticəsində sağ qaldılar

Pilot özünü pis hiss edib sükanı buraxdı



***Ömründə ilk dəfə sükan arxasına keçən sərnişin təyyarəni eniş zolağına salamat endirə bilib***

**Hava yolları tarixi yüzlərlə təyyarə qəzaları, qeyri-adi, ağlagəlməz olaylarla doludur.**

Bunların arasında qəhrəmanlıq hekayələri də olmamış deyil. Belə hekayələrdən biri ABŞ-ın Florida ştatında yaşanıb. Baham adalarından Floridaya uçan sərnişin təyyarəsində pilot anidən rahatsızlanıb, təyyarənin sükanı arxasına isə pilotluq nədir bilməyən sərnişinlərdən biri keçib. Və təsəvvür edin ki, ömründə ilk və bəlkə də sonuncu dəfə idarəetmə sükanı arxasına keçmiş sərnişin təyyarəni qəzasız-bəlasız uçuş zolağına endirməyi bacarıb. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, Baham adaları-Florida reysi ilə uçan təyyarənin pilotu enişə cəmi 110 kilometr məsafə qaldıqda özünü pis hiss etməyə başlayıb və sükan arxasından qalxıb. Hava yollarına nəzarət məmurları pilot əvəzinə tanımadıqları adamın "təyyarəni necə endirəcəyimi bilmirəm, mənə kömək edin!" çağırışını eşitdikdə dəhşətə gəliblər. Lakin xoşbəxtlikdən faciə yox, möcüzə baş verib. Heç bir təcrübəsi olmayan sərnişin nəzarət məmurlarının çarəsiz qalınca "tələsməyin, təmkinli olun, filan düyməni basın, sükandan yapışın..." deyərək sərnişini sakit bir şəkildə başa salmağa çalışıblar və sərnişin deyilənlərə əməl edərək təyyarəni eniş zolağına salamat endirə bilib. Bənzər hadisə Böyük Britaniya hava yollarında da yaşanıb. Yunanıstanın Krit adasından Şotlandiyanın Edinburq şəhərinə uçan "EasyJet" təyyarəsinin kapitanı enişə az müddət qaldığında "özümü pis hiss edirəm" deyərək kapitan pultu arxasından qalxıb ayaqyoluna tərəf qaçıb. Sükanı isə köməkçi pilota həvalə edir. Salondakı sərnişinlər nələrinsə tərs getdiyini hiss edib. Çünki bir müddət keçsə də, sərnişinlər kapitanın hələ də ayaqyolunda olduğunu və heç cür oradan çıxmaq "niyyəti" olmadığını fərq ediblər. Zatən kapitan təyyarə eniş edənədək ayaqyolundan çıxmayıb. Salonda panika yaşanıb. Köməkçi pilot hava yollarına nəzarət kabinəsindən təcili eniş üçün icazə istəyib, vəziyyəti anladıb. Hər cür qəzanı gözə alan hava limanı rəhbərliyi eniş zolağınaT5 yanğınsöndürən və 2 təcili yardım göndərib. Köməkçi pilot isə təyyarəni Edinburq hava limanına qəzasız endirməyi bacarıb. Məlum olub ki, köməkçi pilot 13 saatdır səmadadır. Bu isə ümumilikdə təyyarə pilotlarının gərgin iş şəraitində çalışdığını göstərir. Uzun məsafəli uçuşlar zamanı ekipajın səhhətində problemlər yaranması təbii qarşılanır. Bu səbəbdən Avropa Hava Yolları uzun məsafəli uçuşların fasiləli olması, təyyarə ekipajlarının fasilə ilə dəyişdirilməsi üzərində düşünür. Hazırda Avropa hava yolları şirkətləri pilot qıtlığı yaşayır. Pandemiya səbəbindən ləğv edilən təyyarə reysləri pilotların işlərindən uzaqlaşdırılmasıyla nəticələnib. İşdən çıxan pilotlar isə ağır şərtlər altında yenidən pilot vəzifəsinə qayıtmaq istəmir, özlərinə başqa peşə tapırlar.

**Məlahət Rzayeva**

# Bülənt Ərsoyun milyonluq çatnası görüntülənib



**Türkiyəli müğənni Bülənt Ərsoy tədbirlərin birində görüntülənib.**

**Axşam.az Türkiyə mətbuatına istinadən xəbər verir ki, hər zaman bahalı zinyət əşyalarıyla gündəmə gələn sənətçi bu dəfə çantasıyla diqqət çəkib.**

**Ərsoyun yaşıl rəngli "Fendi" markasına məxsus çantasının milyon lirə (təxminən 98 min 500 manat) dəyərində olduğu üzə çıxıb.**

# Mustafa Sandal xanımına 1 milyonluq hədiyyə etdi



**Marmarisdə iki gün toy edən türkiyəli müğənni Mustafa Sandal həyat yoldaşı Melis Sütşurupa verdiyi hədiyyə ilə gündəmə gəlib.**

**Axşam.az xəbər verir ki, sənətçi Sütşurupa 1 milyon lirə (təxminən 98 min 400 manat) dəyərində boyunbağı hədiyyə edib.**

**O, "Bundan sonra bütün mahnılarımı sənin üçün yazacağam" deyə, həyat yoldaşına söz verib.**

***Qeyd edək ki, sənətçi daha öncə müğənni Emine Yahoviçlə evli olub.***

# "Amazon" malların çatdırılmasında dronlardan istifadə edəcək



**"Amazon" korporasiyası bu ildən etibarən ABŞ-da kiçik bağlamaların çatdırılmasında pilotsuz uçuş aparatlarından istifadəyə başlamaq niyyətindədir.**

**"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə şirkətin məlumatında deyilir.**

**Məlumata görə, dronlarla çəkisi 2,2 kq-dan artıq olmayan mallar, o cümlədən kosmetika, dəftərxana ləvazimatı, akkumulyatorlar və ev üçün yüngül mallar daşınacaq. Dron bir saat ərzində təyinat nöqtəsinə çatmalı və bağlamanı alıcının həyətinə atmalı olacaq.**



# Nikah öncəsi müqavilə bağlayıb

Toydan əvvəl 60 milyonluq sərvətini qorumaq üçün bunu etdi

**Keçən həftə məşhur müğənni Britni Spirslə nişanlısı Sem Askerinin baş tutan toyunun təfərrüatları məlum olub.**

Axşam.az xarici mediaya istinadən xəbər verir ki, cütlük ifaçının xeyrinə nikah öncəsi müqavilə bağlayıb. Bildirilib ki, müqaviləyə əsasən Sem Britninin onunla evlənməzdən əvvəl qazandığı pulu tələb etməyəcək.

Yeri gəlmişkən qeyd edək ki, müğənninin sərvəti təxminən 60 milyon dollar qiymətləndirilir.

Toydan sonra Britni və Sem Kaliforniya ştatının Calabasas şəhərində 11,5 milyon dollara aldıqları yeni evə köçüblər. Maraqlı məqam isə ondan ibarətdir ki, ifaçının keçmiş həyat yoldaşı Kevin Federlaynın evi də yaxınlıqda yerləşir. O, Britnidən olan iki oğlu ilə burada yaşayır.

Media Britninin oğullarının və qardaşının toyuna niyə gəlmədiyini də öyrənib. "People" insayderlərə istinadən verdiyi məlumata görə, ulduzun övladları Şon Preston və Ceyden Ceyms diqqət cəlb etməmək üçün şənlikdə iştirak etməyiblər və bu, evliliyə qarşı deyillər.

Britninin qardaşı Brayan toya dəvət alsa da mərasimdə iştirak edə bilməyib. Bəlli olub ki, həmin gün onun qızı ibtidai məktəbi bitirib. Bu barədə paylaşım edən Brayan bacısının toyunda iştirak etmədiyinə görə özünü pis hiss etsə də qızı üçün başqa yerdə olmalı olduğunu vurğulayıb.

# Qastroenteroloqdan tövsiyyə...

Bəzi xəstələr mayonez və ketçupdan imtina etməlidir



**Müasir qidalanmada populyar souslar insan sağlamlığı üçün zərərlidir.**

Bakupost.az xəbər verir ki, qastroenteroloq Sergey Vyalov bəzi xəstələrin bu 2 sousdan tamam imtina etməsini vacib sayıb.

"Diabet xəstələri və maddələr mübadiləsi pozulması olanlar bu ikilidən tam imtina etməlidir. Ketçuplarda şəkər çoxdur. Mayonez isə yağlıdır. Bu xəstələr üçün ən pis ikili pendirlə mayonezdir. Əgər bunları üstəlik yağlı ət, kartofla yesəniz, başdan-ayağa xolesterindir.

Belə qarışımlar damarları tutur. Soya sousunda da duz və rəng var. Soya sousu qəbul edən gün mütləq çox su içmək lazımdır".

# Dünyanın 4 ən varlı ölkəsi

ABŞ, Yaponiya, Çin və Almaniyada dünyanın 64 faiz zəngin insanı yaşayır



**"Bloomberg"in Milyarderlər İndeksinə görə, dünyanın ən zəngin 500 adamı bu il ümumilikdə 1,4 trilyon dollar itirib. Çanqpenq Zao, İlon Mask, Ceff Bezos, Mark Zurkerberq və Bernard Arnaultdan ibarət dünyanın ən zəngin beşliyinin itkisi 345 milyard dolları keçib.**

"Şərq" NTV-yə istinadən xəbər verir ki, dünyada artan inflyasiya və enerji xərcləri dünyanın ən zəngin insanlarının sərvətini əridib.

Bununla belə, "Capgemini" hesabatı göstərir ki, Avropadan sonra Asiya-Sakit Okean regionunda varlılar cəmi 4,2 faiz artıb. Eyni zamanda, Asiya-Sakit Okean regionu son on ildə varlı insanların artımında Şimali Amerikadan geri qalıb. ABŞ, Yaponiya, Çin və Almaniya dünyanın ən varlı adamlarının ən çox yaşadığı ölkələr sırasındadır. Bu dörd ölkədə dünyanın ən varlı insanlarının 64 faizi yaşayır. 30 milyon dollar və ya daha çox investisiya aktivləri olan insanların sərvətləri 2020-ci ilə nisbətən 9,6 faiz artıb. Hesabatda həmçinin vurğulanıb ki, növbəti iki nəsil dəyişməsi ərzində bütün təbəqələrdən olan qadınlar qlobal sərvətin 70 faizini miras alacaqlar. Texnoloji şirkətlərin və startapların yüksək qiymətləndirmələrindən yaranan böyük sərvət kripto məkanı da daxil olmaqla daha gənc və varlı insanların yaranmasına səbəb olub.

**Çimnaz**

# Yüzlərlə uşağa təcavüz edilib

196 rahibə qarşı cinsi istismar davası açılıb



**Almaniyada yayımlanan sənəd böyük səs-küyə səbəb olub. Sənəddə Almaniyada son 75 il ərzində 196 din xadiminin yüzlərlə uşağı cinsi istismar etdiyi açıqlanır.**

"Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, sənədə əsasən Almaniyanın Şimali Ren-Vestfalya əyalətindəki Münster yepiskopluğunda 1945-2020-ci illər arasında yüzlərlə uşaq rahiblər tərəfindən cinsi istismara məruz qalıb. Sənədi Münster Universiteti hazırlayıb. Sənəddə qeyd olunur ki, 610 uşaq cinsi istismar edilib. Lakin bu, son hədd deyil. Araşdırmaların davam edəcəyi təqdirdə bu sayın 6 min olacağı təxmin edilir. Tədqiqatlar 196 din xadimindən yüzdə beşinin, 10-dan artıq cinsi istismar hərəkəti etdiyini üzə çıxarıb. Üstəlik, kilsə çalışanlarının bu davranışları ört-basdır etdiyi, cinsi istismar hərəkətləri etmiş rahiblərin vəzifədən uzaqlaşdırılmadığı, yalnız iş yerlərinin dəyişdirildiyi də məlum olub. Münster yepiskopu Felix Genn isə sənəddəki iddiaları rədd etməyib, o, baş verənlərə görə zərərçəkmişlərdən və onların ailə üzvlərindən üzr istəyib, cinayətkarların cəzasız qalmayacağını bəyan edib. Almaniyada Katolik kilsəsi tərəfindən hazırlanan hesabatda isə 1946-2014-cü illər arasında ən azı 3 min 677 nəfərin din xadimləri tərəfindən cinsi istismar edildiyi bildirilirdi. Zərərçəkmişlərin yarısından çoxu 13 yaşında və ya daha kiçik yaşlılar olub. Münhen Baş Yepiskopluğu tərəfindən hazırlanan hesabatda isə sabiq papa XVI Benediktin 1977-1982-ci illərdə Münhen baş yepiskopu olduğu zaman uşaqlara qarşı cinsi istismar hərəkətləri edən rahiblərdən xəbərdar olduğu, lakin heç bir tədbir görmədiyi, səssiz qaldığı da qeyd edilir.

**Məlahət**